# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 49 (3287) Şənbə / 23 may - 1 iyun 2020-ci il Qiymәti 40 qәpik


## Əməliyyat

■ **Binəqədi Rayon Polis İdarəsi 43-cü polis bölməsinin əməkdaşları Binəqədi qəsəbəsinin müxtəlif nöqtələrində narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan şəxslərə qarşı növbəti əməliyyat tədbiri həyata keçiriblər.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, əməliyyat zamanı narkotik vasitələrin satışı ilə məşğul olan Binəqədi qəsəbəsi sakinləri əvvəllər məhkum edilən Ruhin Səttarov, Kübra Həsənova, Tərlan İsrafilov və Nəcəf Əsədi saxlanılıblar. Onların üzərlərinə baxış zamanı şəxsi istehlak miqdarından artıq çəkidə narkotik vasitə olan heroin aşkarlanaraq götürülüb. Saxlanılan şəxslər ifadələrində narkotik vasitələrin dövriyyəsi ilə məşğul olduqlarını etiraf ediblər. Faktla bağlı 43-cü polis bölməsində toplanan materiallar Binəqədi Rayon Polis İdarəsinin istintaq şöbəsinə göndərilib, araşdırmalar davam etdirilir.

## Qəza

■ **Beyləqanda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, rayonun Mil qəsəbəsi ərazisində Füzuli rayon sakinləri Fəxrəddin Əsədovun idarə etdiyi “VAZ-2106” və E.Əlizadənin idarə etdiyi “VAZ-21154” markalı avtomobillər toqquşub. Nəticədə F.Əsədov, sərnişini olan qızı və E.Əlizadənin sərnişini xəstəxanaya yerləşdirilib, F.Əsədov orada ölüb. Beyləqan Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

## Qarət

■ **Göyçayda 6 nəfərin bank hesabından pul oğurlanıb.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, oğurluq etdiyinə görə tutulmuş R.Kərimlinin ətrafında Göyçay Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun rayon sakinləri olan daha 6 nəfərin bank hesablarından pul çıxararaq oğurlaması da müəyyən edilib. Araşdırma aparılır.

■ **Oğurluq etdiyinə görə tutulmuş R.Kərimlinin 6 nəfərin bank hesablarından pul çıxararaq oğurlaması da müəyyən edilib.** Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, oğurluq etdiyinə görə tutulmuş R.Kərimlinin ətrafında Göyçay RPŞ-nin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun rayon sakinləri olan daha 6 nəfərin bank hesablarından pul çıxararaq oğurlaması da müəyyən edilib. Araşdırma aparılır.

## Hadisə

■ **Bakıda usta faciəli şəkildə ölüb. Hafta.az-a məlumatına görə, hadisə paytaxtın Suraxanı rayonu, Zığ-Aeroport şossesində yerləşən Metalkonstruksiya zavodunda baş verib.** Həmin zavodda tornaçı işləyən Nağıyev İlkin İbrahim oğlu iş yerində torna dəzgahında işləyərkən paltarı dəzgahın fırlanan hissəsinə ilişib. O aldığı xəsarətlərdən dünyasını dəyişib. Faktla bağlı Suraxanı Rayon Prokurorluğunda cinayət işi başlanıb.

# Siz işdə də, məişətdə də nümunə göstərməlisiniz



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib. Hafta.az xəbər verir ki, dövlətimizin başçısı videoqəbulda çıxış edib.***

## Qəbul

- Mən sizi bu gün Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçısı vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçıları həbs olunub. Bu barədə ictimaiyyətə məlumat verilib. İndi istintaq gedir və hüquq mühafizə orqanları hər şeyi müəyyən edəcək. Artıq ictimaiyyət məlumatlandırılıb. Ağstafa və İmişli rayonlarında icra hakimiyyəti başçıları tərəfindən edilmiş bu pozuntular digər rayonlarda da mövcud olub və bir neçə icra hakimiyyəti başçısı artıq istintaqa cəlb edilib. Bu, bir daha onu göstərir ki, Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa, talançılığa qarşı mübarizə sözdə yox, əməldə aparılır və bu mübarizə bundan sonra da aparılacaq. İndi həm yerli, həm də mərkəzi icra orqanlarının fəaliyyəti araşdırılır və yol verilmiş bütün pozuntular üzə çıxacaq.

Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, Azərbaycanın uğurlu inkişafı, ölkəmizin dayanıqlı inkişafı üçün xoşagəlməz hallara son qoyulmalıdır. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bütün xoşagəlməz hallara qarşı öz işinizlə ciddi mübarizə aparmalısınız. Korrupsiyanın, rüşvətxorluğun, talançılığın kökü kəsilməlidir. Bu sahədə sizin dövlət tərəfindən böyük dəstəyiniz olacaqdır, eyni zamanda, geniş ictimaiyyəti də bu işlərə cəlb edin. Çünki ictimai nəzarət xoşagəlməz hallara qarşı mübarizədə çox önəmli amildir. Mən şadam ki, son müddət ərzində ictimai nəzarət mexanizmləri təkmilləşir. Birinci növbədə siz vəziyyəti təhlil etməlisiniz və insanları narahat edən problemləri həll etməlisiniz. Sizin həll etməyə gücünüz çatmayan məsələlər barədə müvafiq mərkəzi icra orqanlarına məlumat verin ki, bu məsələlər operativ şəkildə öz həllini tapsın. Bizim bölgələrdə gördüyümüz işlərin mənbəyi xalqın iradəsidir. Bildiyiniz kimi, artıq regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra olunur. Bütün proqramların tərtibatında yerlərdən gələn təkliflər üstünlük təşkil edir. Mənim bölgələrə, rayonlara çoxsaylı səfərlərim və səfərlər əsnasında vətəndaşlarla görüşlərim bu proqramların hazırlanmasında xüsusi rol oynayır. Çünki bölgələrdə elə işlər görülməlidir ki, o işlər öz həllini gözləyir, insanlar əziyyət çəkir.

ardı səh. 2 ▶




# “Baku Steel Company”nin 86 işçisində koronavirus aşkarlanıb

**Təşkilatlarda lokal yoluxma halları qeydə alınır. “Baku Steel Company”nin 86 işçisində koronavirus aşkarlanıb. Qurumun Sumqayıt filialında isə 12 yoluxma faktı qeydə alınıb.** Hafta.az xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib. Onun sözlərinə görə, hazırda həmin qurumda epidemioloji vəziyyəti stabilləşdirmək mümkün olub. “Ötən həftə 755 nəfərdə koronavirus aşkarlanıb. Bu həftənin 5 günü ərzində, ümumilikdə 581 yoluxma halı qeydə alınıb”, - Ramin Bayramlı deyib. “Yoluxma hallarının intensivliyi davam edir. Bu həftə günlər üzrə virusa yoluxanların sayı 100-dən yuxarı olub. Ən çox yoluxma faktı isə mayın 16-da qeydə alınıb - 158 nəfər”, - deyə R.Bayramlı qeyd edib. “Sərt karantin rejimi tədbirlərinin yumşaldılmasından sonra bu həftənin sonuna doğru ikinci dalğanın stabilləşməyə meyilli olduğunu görürük. Lakin ötən həftə də dalğalanmalar olduğuna görə qəti fikir bildirmək çətindir”, - Ramin Bayramlı deyib.

R.Bayramlı bildirib ki, mayın 18-dən karantin rejimində növbəti yumşalmalar tətbiq olunduğundan inkubasiya dövrünü nəzərə alaraq gələn həftə nəyin gözlənildiyi sual altındadır. Bu istiqamətdə tədqiqatlar davam etdirilir. Mayın 19-da sağalanların sayı yoluxanların sayını üstələyib. Biz bu cür tendensiyanı arzu edirik. Epidemioloji vəziyyəti nəzarətdə saxlaya bilsək və xəstəxanalara daxil olan xəstələr sağaldıqca qarşıdakı günlərdə bu sayın daha yüksək olacağını gözləyirik. Buna uyğun bütün əks-epidemik tədbirlər icra olunmalıdır. Ramin Bayramlı deyib.

ardı səh. 2 ▶



# Prezident Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Hafta.az xəbər verir ki, təbrikdə deyilir:**

”Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin hidayət yolu olaraq bəşəriyyətə göndərildiyi Ramazan ayı insanları saflığa, vəhdətə, şəfqət və mərhəmətə dəvət edir. Bu ayda möminlər Uca Yaradan qarşısında mənəvi borclarını ödəmək fürsəti qazanır, əxlaqi-ruhi kamilliyin nəfs üzərində qələbəsinin sevincini yaşayırlar.

Builki Ramazan ayını dünyanın böyük təhlükə ilə üz-üzə qaldığı mürəkkəb bir şəraitdə başa vururuq. Mövcud vəziyyət əhalimizin sağlamlığı və rifahı üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edir. Qarşılaşdığımız qlobal bəla ilə mübarizənin uğuru daha çox cəmiyyətin hər bir üzvünün yüksək məsuliyyəti və intizamlı davranışından asılıdır. Müqəddəs kitabımız Quran da daim birlik və bərabərliyə, sosial yardımlaşma və xeyirxahlığa çağırır. Əminəm ki, həmişə belə nəcib keyfiyyətləri ilə seçilən və milli-mənəvi dəyərlərini uca tutan xalqımız öz mütəşəkkilliyi və həmrəyliyi sayəsində bu çətinliyi də geridə qoyacaqdır.

Əziz bacı və qardaşlarım!

Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq duyğuları ilə yola salırlar. Bu mübarək bayram günlərində ölkəmizin firavanlığı və əmin-amanlığı naminə etdiyiniz dualara qatılır, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsini bir daha ehtiramla yad edirəm. Oruc və ibadətlərinizin Allah dərgahında qəbul olunması diləyi ilə hər birinizə möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram. Ramazan bayramınız mübarək olsun!”.

GÜNDƏM

# Sərhədlərin açılması ilə bağlı xüsusi plan hazırlanır



**“Karantin müəssisələri həftəlik 200-500 nəfər qəbul edə bilir. Bu sayı keçsək, müayinə və müalicə prosesində problemlər ola bilər”. Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.**

Onun sözlərinə görə, hazırda karantində olan 1 139 nəfərin arasında Rusiyadan və hava nəqliyyatı ilə xarici ölkələrdən gələnlər var.

TƏBİB sədri qeyd edib ki, 31 maydan sonra sərhədlərin açılması gündəmdə deyil: “Sərhədlərin açılması asandır. Amma gələn vətəndaşların necə təcrid olunması, karantin rejiminin necə qorunması da müzakirə olunur”. Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov Rusiya-Azərbaycan sərhədində toplaşanların olduğunu bildirib: “Mayın 19-da 120 nəfər Azərbaycana gətirilib. Amma bu, karantin zonalarının imkanlarından asılıdır. Bununla belə, “Evə gedirəm” portalı üzrə Moskvadan Azərbaycana aviareys gözlənilir. Ona görə də Rusiyadakı vətəndaşlarımızı “Evə gedirəm” portalı üzərindən ölkəyə gəlməyə çağırırıq. Xüsusən Dağıstanda kütləvi toplaşmalar onların sağlamlığı üçün təhlükə törədir. Təsadüfi deyil ki, bundan əvvəl Rusiyadan gələnlər arasında yoluxma 30 faizə yaxın olub”. İ. Məmmədov qeyd edib ki, beynəlxalq uçuşların bərpası və sərhədlərin açılması ilə bağlı xüsusi plan hazırlanır: “Bu planda hansı ölkələrlə uçuşların olacağı öz əksini tapacaq. İlk növbədə isə Naxçıvana uçuşlar bərpa olunacaq. Planın hazırlanması prosesinin iyunun 15-dək uzanması gözlənilir. Bu gün axşam isə İstanbuldan 174 nəfərin olduğu təyyarə reysi gələcək və onlar karantin zonasına yerləşdiriləcəklər”.

## Günün fotosu...



Xoş gördük, ana...

“HƏFTƏ İÇİ”ndən



## 15 saylı Birləşmiş Şəhər Xəstəxanasında “UZİ” aparatı olmasa da, həkim maaş alır

Bu səbəbdən, avadanlıq ala bilmirik. Kardioqrama aparatının lentini öz cibimizin pulu ilə alırıq

bax səh. 7 ▶



## 23 may ekoloqların peşə bayramıdır

Azərbaycanda ətraf mühitin mühafizəsi həmişə diqqət mərkəzində saxlanılır

bax səh. 6 ▶

# Sərəncam



**Prezident İlham Əliyev 2020-ci il üçün Azərbaycan Respublikasının elm sahəsində Dövlət Mükafatının verilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, 2020-ci il üçün elm sahəsində Azərbaycan Respublikasının Dövlət Mükafatı "Materiyanın yeni kvant halı - antiferromaqnit topoloji izolyator: dizayn, əsas elektron xassələri və tətbiq perspektivləri" mövzusunda elmi məqalələr toplusuna görə aşağıdakı şəxslərə verilir:

Nazim Timur oğlu Məmmədov

İmaməddin Rəcəbəli oğlu Əmiraslanov

Nadir Allahverdi oğlu Abdullayev

Ziya Saxavəddin oğlu Əliyev.

***

**Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinə sədr təyin edilib.** Prezident İlham Əliyev Valeh Feyruz oğlu Ələsgərovun Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri təyin edilməsi barədə Sərəncam imzalayıb.

***

**Arif Akif oğlu Seyidov Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.**

# Vladimir Putin Azərbaycan Prezidentinə təbrik ünvanlayıb



**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik ünvanlayıb.**

Hafta.az xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli İlham Heydər oğlu.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ölkənizin sosial-iqtisadi, elmi-texniki və digər sahələrdə qazandığı uğurlar hamı tərəfindən qəbul edilir. Azərbaycan dünya arenasında haqlı olaraq nüfuz qazanıb, beynəlxalq gündəlikdə duran məsələlərin həllində əhəmiyyətli rol oynayır. Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir. Əminəm ki, biz birgə səylərimizlə ikitərəfli strateji tərəfdaşlığın, konstruktiv əməkdaşlığın bütün istiqamətlərdə bundan sonra da inkişafını təmin edəcəyik. Bu proses, şübhəsiz, bizim dost xalqlarımızın köklü maraqlarına cavab verir, regional sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi məcrasında inkişaf edir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və uğurlar, Azərbaycan Respublikasının bütün vətəndaşlarına rifah və tərəqqi arzulayıram".

# DGK bayram günlərində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək

**Xarici ticarət iştirakçılarının nəzərinə çatdırılıb ki, gömrük rəsmiləşdirilməsinin fasiləsiz şəkildə həyata keçirilməsi, ticarət-təchizat zəncirinin davamlılığının təmin olunması, sahibkarlara daha əlverişli şəraitin yaradılması məqsədilə gömrük orqanları qarşıdakı qeyri-iş günlərində də gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.**

Belə ki, DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən hafta.az-a verilən məlumata görə, Azərbaycan Respublikasının ərazisində iş və istirahət günlərinin yerinin dəyişdirilməsi və xüsusi karantin dövründə qeyri-iş günlərinin müəyyən edilməsi haqqında Nazirlər Kabinetinin qərarına əsasən qarşıdan gələn qeyri-iş günlərində gömrük sərhədindən keçirilən malların rəsmiləşdirilməsi məqsədilə Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan ərazi və ixtisaslaşdırılmış gömrük idarələri mayın 25-dən etibarən gündəlik iş rejimində fəaliyyətini davam etdirəcək. Qeyd edək ki, gömrük rəsmiləşdirilməsi zamanı xarici ticarət iştirakçıları hökumət ödəniş portalının xidmətindən istifadə etməklə mal və nəqliyyat vasitələrinə görə gömrük ödənişlərini həyata keçirə bilər.

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur. Qəzet həftənin 5 günü çıxır.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Siz işdə də, məişətdə də nümunə göstərməlisiniz

◂ əvvəli 1-ci səhifədə

Ona görə vəziyyəti təhlil edərkən siz, ilk növbədə, vətəndaşları narahat edən məsələləri aşkarlamalısınız. O ki qaldı, infrastruktur layihələrinə, üç Dövlət Proqramının icrası nəticəsində infrastruktur layihələrinin böyük hissəsi öz həllini tapıb. Bunu indi hər kəs görür, bölgələrdə yaşayan insanlar görür və eyni zamanda, beynəlxalq təşkilatlar da bunu qeyd edir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlığına görə Azərbaycan dünyada 2-ci yerdədir. Yolların keyfiyyətinə görə 30-cu yerlərdədir. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, demək olar, qazlaşdırma layihələrinin böyük əksəriyyəti başa çatıb, qazlaşdırmanın səviyyəsi 96 faizdir. İçməli su layihələri bütün şəhərlərdə icra edilir, ya artıq başa çatıb, ya da ki, başa çatmaq üzrədir. Bütün bunlar dövlət tərəfindən görülmüş işlər, qoyulan investisiyalardır. Ona görə infrastruktur layihələrinin əsas hissəsi öz həllini tapıb.

Ona görə sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, artıq bu möhkəm təməl üzərində öz işinizlə rayonların sosial-iqtisadi inkişafını təmin edəsiniz. Eyni zamanda, bütün işlər ədalətli görülməlidir. Ədalət sizin işinizdə əsas prinsip olmalıdır və indiki şəraitdə, pandemiya dövründə insanlara daha çox yardım, kömək göstərilməlidir. Yerlərdə, ilk növbədə, bunu icra başçıları, icra strukturları etməlidirlər.

Əlbəttə, Azərbaycan dövləti bütün lazımi tədbirləri görür. Azərbaycanda pandemiya ilə əlaqədar tətbiq olunan mexanizm hesab edirəm ki, ən yüksək qiymətə layiqdir. Biz yüz minlərlə insanın sosial vəziyyətinin pisləşməsini nəzərə alaraq, onlara yardım göstəririk. Bu yardım insanları bu ağır vəziyyətdə ruhlandırır, eyni zamanda, onların maddi imkanlarının təmin edilməsində rol oynayır. Biz bunu edirik ki, insanlar bu vəziyyətdən çıxsın və az itkilərlə çıxsınlar. İlk növbədə, koronavirusla bağlı mübarizədə görülmüş işlər yüksək qiymətə layiqdir. Eyni zamanda, koronavirusa görə işini itirən, yaxud da ki, müvəqqəti olaraq itirən insanların da yardımına dövlət gəlməlidir. Ona görə dövlət hər zaman bu işlərdə aparıcı rolunu oynayacaq və siz də yerlərdə Azərbaycan dövlətinin nümayəndələrisiniz. Ona görə sizin işinizdən, eyni zamanda, ümumiyyətlə, Azərbaycanda görülən işlər haqqında da təsəvvür yaranır.

Əgər icra hakimiyyəti başçısı öz vəzifə borcunu yerinə yetirmirsə, əksinə, insanları incidir, insanların əmlakına göz dikir, kimsəsiz insanlara çatacaq yardımı, ictimai işlərə cəlb edilmiş insanların ödəniş kartlarını oğurlayır, talançılıqla, rüşvətxorluqla, korrupsiya ilə məşğul olursa, onda insanlar hansı fikirdə ola bilərlər? Siz işdə də, məişətdə də nümunə göstərməlisiniz və elə işləməlisiniz ki, insanlar sizdən razı olsunlar. İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacağam. Ona görə vəziyyəti dərindən təhlil edin, həllini gözləyən məsələləri həll etmək üçün səylər göstərin və gücünüz çatmayan işlərin həll edilməsi üçün Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq dövlət orqanlarına müraciət edin.



İndiki şəraitdə ölkəmizin uğurlu inkişafı, ilk növbədə, qeyri-neft sektorunun hesabına təmin ediləcək və əlbəttə ki, sahibkarlığın inkişafı daha böyük əhəmiyyət daşıyır. Biz bu işlərlə çox uğurla məşğul oluruq və bu gün Azərbaycanda çox böyük sahibkarlıq sinfi formalaşıb. Ancaq bəzi hallarda sahibkarlar çətinliklərlə üzləşirlər. Hansısa layihəni icra etmək, hansısa investisiyanı qoymaq istəyəndə məmurlar tərəfindən problemlərlə üzləşirlər. Bəzi məmurlar onların layihələrinə şərik çıxmaq istəyirlər, bəzi məmurlar onların gəlirlərinə göz dikirlər. Buna qətiyyən yol vermək olmaz. Əksinə, siz sahibkarları cəlb etməlisiniz, siz onları inandırmalısınız. İndi dünyada investisiyalar uğrunda mübarizə aparılır. Ölkələr öz təkliflərini irəli sürürlər ki, investorları cəlb etsinlər. Ona görə siz, ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, onlar gəlib məhz sizin rayonlarınıza sərmayə qoysunlar, iş yerləri yaratsınlar və beləliklə, rayonların inkişafına töhfə versinlər. Amma bəzi hallarda sahibkar iş görmək istəyir, ona min cür əziyyət verilir. Buna yol vermək olmaz.

Kənd təsərrüfatının inkişafı bizim üçün prioritet sahə olaraq qalır. İndiki şəraitdə kənd təsərrüfatının müasir üsullarla inkişafı ilə əlaqədar çox geniş proqramlar icra edilir. Bu sahədə də yerli icra orqanlarından çox şey asılıdır. Ona görə, müvafiq dövlət qurumları ilə birlikdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlər görülməlidir, insanlar işlə təmin edilməlidir, məhsuldarlıq artmalıdır və kənd təsərrüfatının inkişafını şərtləndirən bütün amillər təmin edilməlidir, o cümlədən suvarma suyunun ədalətli bölüşdürülməsi məsələsi. Bu sahədə də böyük pozuntular var, yerlərdən mənə şikayətlər gəlir. Keçən il də quraqlıq olub, bu il də quraqlıqdır və biz sudan böyük qənaətlə istifadə etməliyik. Bütün bu işləri düzgün təhlil etmək və tədbirlər planı hazırlamaq üçün mənim Sərəncamımla xüsusi komissiya yaradılıb və artıq komissiyanın ilkin araşdırmaları mənə təqdim edilib. Biz bunu demək olar ki, təxmin edirdik, bəzi hallarda itkilər 40-50 faiz səviyyəsindədir. Bu, dözülməzdir. Belə israfçılıq böyük problemlərə gətirib çıxarır. Ona görə siz bu sahədə bütün vəziyyəti təhlil edin. Əlbəttə, mərkəzi icra orqanları bu məsələ ilə məşğuldurlar və komissiyanın tərkibində nazirlər təmsil olunur. Amma yerlərdə siz bu işlərə ciddi fikir verin, təftiş aparın və məlumat verin. Çünki biz əgər ancaq bu itkiləri azaltsaq, kənd təsərrüfatında daha böyük irəliləyişə nail ola bilərik. Eyni zamanda, suyun ədalətli bölüşdürülməsi məsələsi də çox aktualdır. Çünki mənə verilən məlumatlara görə, bəzi hallarda icra başçılarına yaxın olan sahibkarlara su verilir, ancaq kənar adamlara su verilmir. Bu, ədalətsizlikdir və buna son qoyulmalıdır.

Ödənişli ictimai iş yerlərinin yaradılması artıq bir neçə ildir ki, təmin edilir və biz bu kateqoriyaya aid olan insanların sayını ildən-ilə artırırıq. Biz 30 mindən başlamışıq. Bu il mənim göstərişimlə 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır və bu istiqamətdə artıq nəticələr vardır. Ancaq əfsuslar olsun ki, bəzi icra başçılarının cinayətkar əməllərinə görə, bu sahə də ən korrupsiyalaşmış və ən çirkin sahəyə çevrilib. O işlərə cəlb edilən insanların ödəniş kartları icra başçıları tərəfindən oğurlanırdı. Həbs olunmuş bütün icra başçılarının iş otaqlarından və onların yaxınlarının iş otaqlarından yüzlərlə ödəniş kartı çıxır. Bu pul kasıb, özünə iş tapa bilməyən insanlara çatmalıdır. Xüsusilə pandemiya dövründə bütün ölkələrdə iş yerləri ixtisar edilir, bütün ölkələrdə işsizlik artır, o cümlədən Azərbaycanda. Belə bir vəziyyətdə kasıb insanın puluna göz dikmək vicdansızlıqdır və cinayətdir. Ona görə bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verilib ki, onlar ümumi nəzarət və eyni zamanda, monitorinq aparsınlar. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bu işləri ciddi təhlil edin, görün nə qədər insan cinayətkar icra başçıları tərəfindən bu imkandan məhrum edilib. Biz bu ədaləti bərpa etməliyik.

Bir sözlə, sizin fəaliyyətiniz rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafında özünü göstərməlidir. Çünki açıq demək istəyirəm, təxminən son 17 il ərzində bölgələrdə görülmüş işlərin ən azı 90 faizi mənim təşəbbüsümlə görülüb, dövlət proqramları çərçivəsində görülüb, 16 min kilometr avtomobil yolu çəkilib, bütün elektrik təsərrüfatı demək olar ki, yenidən qurulub. Biz qazlaşdırmanı təxminən 100 faizə çatdırmışıq, 3500-dən çox məktəb, 700-dən çox tibb ocağı, 50-yə yaxın Olimpiya İdman Mərkəzi, nə qədər Gənclər evləri, mədəniyyət sarayları, digər sosial obyektlər tikilib. Bütün bunları biz mənim bilavasitə göstərişimlə dövlət büdcəsi hesabına etmişik. İndi baxaq görək icra başçıları nə iş görüblər, hansı daşı daş üstünə qoyublar. İndi bütün bu işlər təftiş edilir.

Mənim ayırdığım vəsait hesabına tikilmiş evlər, yəni, qəzalı evlərin əvəzinə tikilmiş evlərin tikintisində də oğurluq baş verir, həm tikintidə, həm də ki, ondan sonra mənzillərin bölüşdürülməsində. Bu evlərin insanlara tamamilə pulsuz verilməsi nəzərdə tutulubdur. Amma həm tikintidə pul oğurlanır, həm də mənzillər rüşvət müqabilində paylanılır. Deməli insanlardan pul qopardılır. İndi təftiş aparılır və bütün bu pozuntularda əli olan vəzifəli şəxslər məsuliyyətə cəlb ediləcək. İcra başçısı ona göstərilən etimadı öz işi ilə doğrultmalıdır.

Bölgələrdə gedən işlər daim mənim nəzarətimdədir. Mənim çoxsaylı səfərlərim, eyni zamanda, o məqsədi güdür ki, görülmüş işlərin icrasını görüm, tanış olum və insanları narahat edən problemləri insanlardan eşidim və biz bunları həll edək. Amma deyə bilərəm ki, bir çox hallarda icra hakimiyyəti başçısı öz iş otağından çıxmır. Bütün icra hakimiyyəti başçıları, o cümlədən siz bütün kəndlərdə insanlarla görüşməli, insanları narahat edən problemləri insanların dilindən eşitməli və ondan sonra qərar qəbul etməlisiniz. Elə məsələ var ki, sadəcə olaraq, laqeydlik, biganəlik və məsuliyyətsizlik ucbatından həll olunmur. Elə məsələ var ki, heç böyük vəsait, böyük əziyyət tələb etmir. Sadəcə, onların vecinə deyil.

Onlar hesab edirlər ki, orada ağa kimi rəhbərlik etməlidirlər, insanları incitməlidirlər, öz şəxsi maraqlarını təmin etməlidirlər. Belə təfəkkürlə yaşayan insanların bizim aramızda yeri yoxdur. Onların yeri başqa yerdədir. Ona görə, siz bütün kəndlərdə olmalısınız, bütün problemləri vətəndaşlardan öyrənməlisiniz və onları həll etməlisiniz. Bir daha demək istəyirəm ki, yerli səviyyədə həlli mümkün olmayan problemlər dərhal müvafiq mərkəzi icra orqanlarına çatdırılmalıdır.

Bu gün Azərbaycan yeniləşir, müasirləşir və yeni kadrlardan çox şey asılıdır. Sizin fəaliyyətinizdən çox şey asılıdır və insanların inamı, əhval-ruhiyyəsi, ədalətə inanması bir çox hallarda yerli rəhbərlərin işindən asılıdır. Siz elə işləməlisiniz ki, insanlar sizə inansınlar, sizi dəstəkləsinlər və sizin işinizdən razı olsunlar.

Bunu da bilməlisiniz ki, sizin fəaliyyətinizə diqqət göstəriləcək, nəzarət olunacaq. Elə işləməlisiniz ki, mənim tərəfimdən verilən bütün tapşırıqlar yerinə yetirilsin, Ağstafa və İmişli rayonlarının uğurlu inkişafı təmin edilsin.

Elçin Rzayev: Möhtərəm cənab Prezident, göstərdiyiniz bu böyük etimada görə Sizə dərindən təşəkkür edirəm. Bu etimaddan irəli gələn məsuliyyətin dərinliyini dərk edərək, Sizi əmin etmək istəyirəm ki, üzərimə düşən, dövlətimizə bağlı vəzifələrin həyata keçirilməsinə və qarşıya qoyulan məqsədlərə ləyaqətlə nail olmaq üçün yorulmadan var qüvvəmlə çalışacağam. Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ ol.

Seymur Orucov: Möhtərəm cənab Prezident. Mən də bu çox böyük və məsuliyyətli etimada görə öz adımdan və Yeni Azərbaycan Partiyasının gəncləri adından Sizə dərin minnətdarlığımı bildirirəm. Bu etimad mənim timsalımda YAP gənclərinə olan etimaddır. Bu etimad bütün Azərbaycan gəncliyinə böyük stimuldur. Siz dəfələrlə öz çıxışlarınızda demisiniz ki, Azərbaycan gəncliyinə güvəniniz və etimadınız böyükdür.

Gənclərin bu gün ölkənin ictimai-siyasi həyatında fəal olmasının əsası Ulu Öndərimiz tərəfindən qoyulmuşdur. Çünki möhtərəm cənab Prezident, 1990-cı illərin əvvəllərində hakimiyyəti zəbt etmiş AXC-Müsavat dövründə Azərbaycan gəncliyini zorla ali təhsil ocaqlarından, iş yerlərindən mitinq bölgələrinə və onların yarıtmaz liderlərinə dəstək tədbirlərinə aparırdılar. Gənclərimiz çox bədbin ruhda idilər. Lakin Ulu Öndərimiz hakimiyyətə gəldikdən sonra Azərbaycan gəncliyində gənclik ruhu özünə qayıtdı. Ulu Öndər bütün Azərbaycan gəncliyini vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Siz də bu gün bu siyasəti yeni üslubda, çox möhtəşəm formada həyata keçirirsiniz.

Möhtərəm cənab Prezident, bu gün Azərbaycan gəncliyi Sizə borcludur. Ona görə borcludur ki, Siz bizi dövlət orqanlarında önə çəkirsiniz. Bununla bərabər, Siz və Birinci vitse-prezidentimiz biz gənclərin, Azərbaycan xalqının canını da qoruyursunuz. Çünki bu gün dünyada baş verən bəladan göründü ki, bir çox dövlətlər var idi, böyük dövlətlər, onlar bu prosesi Sizin qədər dəqiq, vaxtında, az itki ilə idarə edə bilmədi. Bu da Sizin liderlik xüsusiyyətinizdən irəli gəlir. Çünki lider çox çətin gündə bilinir. Biz gənclər bununla fəxarət hissi keçiririk. İstər Türk Şurasının, istərsə də Qoşulmama Hərəkatının Zirvə görüşlərinin keçirilməsi ilə bağlı bütün dövlət və hökumət başçılarının Sizin çağırışınıza səs verməsi, dünyanı bu bəladan birgə qurtarmaq səyləriniz bütün dünyaya nümunədir və Azərbaycanın dünyada artan nüfuzundan xəbər verir.

Möhtərəm cənab Prezident, mən də Sizə söz verirəm ki, var gücümlə Heydər Əliyev siyasətinə xidmət edəcəyəm, rayonun inkişafı və abadlaşması üçün var qüvvəmi səfərbər edəcəyəm və dövlətimə, millətimə, Sizə ləyaqətlə xidmət edəcəyəm. Yolunuz yolumuzdur, cənab Prezident. Bir daha təşəkkür edirəm, minnətdarlığımı bildirirəm.

Prezident İlham Əliyev: Sizə uğurlar arzulayıram.

# "Baku Steel Company"nin 86 işçisində koronavirus aşkarlanıb

◂ əvvəli 1-ci səhifədə

R.Bayramlı bildirib ki, bu həftənin ötən günləri ərzində 384 nəfər sağalıb. Ötən həftə isə xəstəlikdən sağalanların sayı 365 nəfər olub. Həftə başa çatmasa da, sağalanların artım dinamikası var: "Ötən həftə 7 nəfər koronavirus səbəbindən vəfat edib. Bu həftənin ötən müddətində də 7 nəfər COVID-19 infeksiyası səbəbindən dünyasını dəyişib".

Ölkəmizdə koronavirusa yoluxma hallarının 47,2 faizi Bakıda, 12,8 faizi Gəncə-Qazax bölgəsində, 10,8 faizi Aran rayonlarında, 9,8 faizi Lənkəranda, 8,1 faizi isə Abşeron yarımadasında qeydə alınıb. Ramin Bayramlı deyib. R.Bayramlı bildirib ki, Bakı, Gəncə, Sumqayıt şəhərlərində, Lənkəran, Salyan, Yevlax, Neftçala, Cəlilabad, Kürdəmir, Samux, Abşeron, Ağstafa, Göyçay rayonlarında yoluxma halları digər rayonlara nisbətən çoxdur. Yevlaxda 83 yoluxma faktı qeydə alınıb, bu da ümumi yoluxma hallarının 2,1, aktiv halların 6 faizə qədərini təşkil edir. Bu, onu göstərir ki, vətəndaşlar qətiyyən arxayınlaşmamalı, tibbi qurumlar isə fəaliyyətini gücləndirməlidirlər. Azərbaycanda koronovirusdan həyatını itirənlərin 15 nəfəri 60-69, 13 nəfəri 50-59, 11 nəfəri 70-79 yaş arasında, 5 nəfəri isə 80 yaşdan yuxarı vətəndaşlarda qeydə alınıb. 40-49 yaş qrupunda ölənlərin sayı iki nəfərdir. Aşağı yaş qruplarında vəfat edənlərin çoxu yanaşı gedən ağır xəstəliklərdən əziyyət çəkirdilər. Ramin Bayramlı deyib.

R.Bayramlı bildirib ki, Azərbaycanda koronavirusa yoluxma hallarında sağalanların yaş qrupları üzrə və cins bölgüsündə əvvəlki həftə ilə müqayisədə dəyişiklik qeydə alınmayıb.

Paytaxtda ən çox yoluxma faktı Yasamalda qeydə alınıb. Belə ki, paytaxt üzrə yoluxma hallarının 16 faizi həmin rayonun payına düşür. Ramin Bayramlı deyib. R.Bayramlı bildirib ki, Nəsimi rayonunda bu rəqəm 14,8, Sabunçuda 13,8, Nərimanovda 11,3, Binəqədidə 10,6, Xətaidə 9,4, Qaradağda 8,4, Suraxanıda 5,4, Nizamidə 4,9, Xəzərdə 3,1, Səbaildə 1,8, Pirallahıda 0,4 faizə bərabərdir. O, həmçinin deyib: "Günlər ərzində 7 minə yaxın testlər icra olunub. Müsbət nəticələrin ümumi müayinələrdə payı 1,5 faizə yaxındır. Həftəlik orta rəqəm isə təxminən 2,4 faiz təşkil edir. Ümumi testlərdə müsbət nəticələrin payı sərt karantin rejimi ilə müqayisədə 0,3-0,5 faizdən 2,4 faizə qədər yüksəlib. Ötən həftə isə bu nisbət 2,9 faizə qədər artıb". "Polislər arasında da koronavirusa yoluxma halları aşkarlanıb". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, Bakı Metropolitenində polislər arasında yoluxma aşkarlanmayıb: "Ancaq metro riskli nəqliyyat vasitəsidir. Belə yerlərdə maska taxılması və sosial məsafənin gözlənilməsi vacibdir". "Koronavirusa yoluxanlar arasında hamilələr də olur", - Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, bu risklər Operativ Qərargah tərəfindən nəzərə alınır: "Bu günə qədər həmin xəstələr, yəni həm analar, həm hamilələr arasında ağırlaşma olmayıb".

"İndiyə qədər Naxçıvanda koronavirusa 104 yoluxma qeydə alınıb", - Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, Naxçıvanda hər 100 min nəfərə 23,4 nəfər yoluxma düşür. "Naxçıvandan Bakıya uçuşlar bərpa edilən zaman müəyyən qaydalar tətbiq olunacaq". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, Naxçıvandan gələnlərə karantin rejiminin tətbiq olunması ilə bağlı hələ ki, bir rəy yoxdur: "Gələcək günlərdə bu qaydalar açıqlanacaq".

"Bu qaydalar istər təyyarənin içərisində təyyarə ekipajı, istərsə hava limanında çalışanlar və sərnişinlər üçün nəzərdə tutulur. İstər Naxçıvandan, istərsə də ölkə xaricindən gələn həmvətənlərimizin hansı qaydada qəbul ediləcəyi qarşıdakı günlərdə açıqlanacaq", - deyə o vurğulayıb. Operativ Qərargahın tibb bölməsi tərəfindən həftəsonları, bayram günləri 2-4 günlük küçəyə çıxma qadağalarının tətbiqi ilə bağlı qaydalar hazırlanıb. Bu bayramda həmin qaydaların tətbiqi barədə müzakirələr apardıq. Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında TƏBİB-in İdarə heyətinin sədri Ramin Bayramlı bildirib. O deyib ki, mövcud epidemioloji statistik göstəricilər qısamüddətli bağlanma alqoritminə uyğun olmadığı üçün buna gedilməyib: "Amma epidemioloji vəziyyət dəyişərsə və statistik göstəricilər qısamüddətli qadağaların alqoritminə uyğun olarsa, bunların tətbiqi önümüzdəki həftə yenidən müzakirə oluna bilər. Bu qadağanın tətbiq olunmaması o demək deyil ki, gələcək həftə sonlarında, bayramlarda da tətbiq olunmayacaq. Bunu hər birimizin sosial məsuliyyəti və epidemiyanın gedişatı müəyyən edəcək. Əslində, bir çox ölkələrdən fərqli olaraq ölkəmizdə bayramda küçəyə çıxma qadağasının tətbiq olunmaması bayramı daha maraqlı və sərbəst keçirməyimizə imkan verir. Qohumlara gedib onları riskə atmaqdansa, bayramı evdə ailəmizlə, ya da yaxın parka getməklə keçirə bilərik. İftar, bayram süfrələrinin təşkilini qətiyyən tövsiyə etmirik". "Bu pandemiyanın nə qədər davam edəcəyini bilmirik", - Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, tibbi maska və sosial məsafənin, ən azı, 1,5 metr məsafənin qorunması vacibdir: "Qapalı məkanlarda bu qaydalara tam riayət edilmədir. Açıq məkanlarda isə növbələr zamanı həm maska taxılması, həm də sosial məsafə gözlənilməlimdir. Əgər yoluxma səviyyəsi artsa, yenidən sərt karantin rejiminə gedə bilərik".

TƏBİB İdarə Heyətinin sədri qeyd edib ki, tibbi bölmə tərəfindən həftəsonları küçəyə çıxmanın məhdudlaşdırılması barədə qaydalar hazırlanıb: "Bu həftə buna getmədik. Ancaq epidemioloji vəziyyət dəyişərsə, bu məhdudlaşmanın tətbiqi önümüzdəki həftə yenə müzakirə oluna bilər.

Bir çox ölkədən fərqli olaraq, həftəsonu hərəkətə qadağan tətbiq olunmur və vətəndaşlarımız da anlayışlı olmalıdırlar". "Toy və digər kütləvi tədbirlərin, bu tipli məclislərin keçirilməsi iyun ayında da nəzərdə tutulmur", - Ramin Bayramlı bildirib. Onun sözlərinə görə, hazırda 10 nəfərin kütləvi toplanması qadağandır, bunun real epidemioloji səbəbləri var: "İyun ayında vətəndaşlarımıza bunu tövsiyə etmirik".

✍ Hafta.az

# Bizim müasir, ən mürəkkəb texnoloji tələblərə cavab verən qabaqlayıcı vasitələrə ehtiyacımız var

***Mayın 22-də “Signify” (əvvəlki adı “Philips Lighting”) şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu şirkətin baş icraçı direktoru Erik Rondolat, MDB üzrə baş meneceri Erik Benedetti və “Signify” rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.***



Hafta.az xəbər verir ki, 1891-ci ildə yaranan bu şirkət dünyanın 74 ölkəsində fəaliyyət göstərir, 140 ölkədə xidmət və məhsul satışı həyata keçirir. “Signify” işıqlandırma avadanlıqları, sistemləri və xidmətləri sahəsində dünyada birinci yerdə olmaqla yanaşı, 10 “yaşıl” şirkətdən biridir.

Prezident İlham Əliyev: Sabahınız xeyir.

Baş icraçı direktor Erik Rondolat: Sabahınız xeyir.

Prezident İlham Əliyev: Sizi görməyə çox şadam.

Erik Rondolat: Vaxt ayırdığınıza görə minnətdaram. Mən də Sizi görməyimə çox şadam.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Davosdakı görüşümüzü xatırlayıram. Mənə verilən məlumata görə, o vaxtdan bəri bizim yaxşı irəliləyişimiz olub. Baxmayaraq ki, koronovirusla bağlı vəziyyət bizim planlarımıza bir az müdaxilə etdi, lakin mənə məlumat verildiyi kimi, bizim müzakirə etdiklərimiz və razılaşdırdıqlarımızın hamısı indi icra mərhələsindədir.

Erik Rondolat: Bəli, tamamilə doğrudur. Çox məmnunuq ki, Bakı şəhərində 33 min LED işıq quraşdırılacaq və onların sayəsində çox böyük həcmdə enerjiyə qənaət ediləcək. Qənaət göstəricisi minimum 50 faiz təşkil edir. Həmin layihə davam edir. Eyni zamanda, çox şadıq ki, Siz bizə tam dəstək verirsiniz. Bu işə bağlantının yaradılması ilə başladıq. Bu, ona görə edilir ki, sonrakı mərhələdə quraşdırılan işıqlar arasında bağlantı mümkün olsun.

Prezident İlham Əliyev: Çox yaxşı. Şadam ki, bayaq da qeyd etdiyim kimi, hər şey cədvələ uyğun olaraq gedir. Mənə məlumat verildi ki, Davosdakı görüşdən sonra sizin komandanız bizi mart ayında ziyarət etmişdir. Sizin də qeyd etdiyiniz kimi, sentyabrın sonunadək bizdə Bakı üçün minlərlə yeni küçə işığını özündə ehtiva edəcək birinci mərhələ artıq icra edilmiş olacaq. Bu da birinci növbədə küçələrin işıqlandırılması baxımından vəziyyəti yaxşı olmayan əraziləri əhatə edəcək. Eyni zamanda, sizin də qeyd etdiyiniz kimi, biz böyük miqdarda enerjiyə qənaət etmiş olacağıq. İnsanlar da bunun faydasını görəcəklər. Bizim müzakirə etdiyimiz kimi, bu birinci layihədən sonra birgə fəaliyyətimizin genişləndirilməsinə, Bakı və digər şəhərlərin əhatə edilməsinə dair böyük planlarımız var. Birinci mərhələdə ola bilsin ki, böyük şəhərlər əhatə olunacaq. Biz Sumqayıt şəhərinin küçə işıqları barədə danışdıq. Mənim bildiyimə görə qiymətləndirmə prosesi gedir. Beləliklə, ümid edirəm ki, bizim bu sahədə uzunmüddətli əməkdaşlığımız olacaq.

Erik Rondolat: Bəli, biz də dəqiqliklə həmin işləri görmək istərdik. COVID-19 səbəbindən bizdə işin icrası ilə bağlı müəyyən yubanma ola bilər. Lakin hesab edirəm ki, hamımız işin başa çatdırılmasına köklənmişik. Erik Rondolat işıqlandırma sistemlərinin quraşdırılmasının şəhərin yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində rolunu qeyd etdi. Pandemiya bitəndən sonra təmsil etdiyi şirkətin Azərbaycanla əməkdaşlığının uğurla davam edəcəyinə ümidvar olduğunu dedi.

Erik Rondolat: Biz çox fərəhlənirik ki, işıqlandırmanın ən son yeniliklərini Bakıda tətbiq edə biləcəyik.

Prezident İlham Əliyev: Bəli, təşəkkür edirəm. Bilirəm ki, şirkətiniz artıq Azərbaycanda dövlət və özəl sektorla bir neçə layihə həyata keçirib. Lakin Davosda müzakirə etdiyimiz və indi birgə icra etdiyimiz bu layihə, əlbəttə ki, ən böyük miqyaslı layihədir. Əvvəllər də müzakirə etdiyimiz kimi, onun gələcək üçün böyük potensialı var. Çünki bu, birinci təcrübədir. Mən əminəm ki, bu, çox uğurlu bir təcrübə olacaqdır və sonra da bələdiyyə, şəhər idarəetmə orqanları bunun faydasını görəcəklər. Bildirildi ki, biz çoxlu enerjiyə, yerin təkindən hasil edilən yanacağa digər məqsədlər üçün, ixrac üçün qənaət edəcəyik və şəhərin həyatını daha da yaxşı edəcəyik.

Erik Rondolat: Əvvəlcə qeyd etdiyim kimi, biz sonrakı mərhələdə bağlantını da təmin edəcəyik və onun sayəsində əlavə imkanlar ortaya çıxacaq. Beləliklə, Bakı şəhərinin işıqları “Ağıllı şəhər”in komponentinə çevriləcək. Bir daha verdiyiniz dəstəyə görə minnətdaram.

Prezidentin köməkçisi Natiq Əmirov “Signify” şirkəti ilə əməkdaşlıqdan və perspektiv layihələrdən danışdı.

Natiq Əmirov: Cənab Prezident. Əvvəla sıx iş qrafikinizə rəğmən bu görüşü təşkil etdiyinizə və bizə “Signify” şirkəti ilə birlikdə bu layihə ilə bağlı bütün məsələləri müzakirə etmək imkanı yaratdığınıza görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Əslində “Bakı ağıllı şəhər” işıqlandırılması layihəsi üzrə işlərin gedişi hazırda çox yaxşıdır və bir çox işlər görülmüşdür. Onlar bizim müqaviləni tamamlayıblar. İyul ayından başlayaraq bütün lampaların ölkəmizə idxalı prosesi başlayacaq və idxal prosesi sentyabrın sonu, oktyabrın əvvəlində başa çatacaq.

Erik Rondolat: Cənab Prezident, bir məsələni də qeyd edim. Bütün dünyada hazırda böhrandır. Bilirik ki, Siz pandemiyanı dayandırmaq üçün Azərbaycan Respublikasında çox ciddi tədbirlər görürsünüz.

“Signify” şirkətinin baş icraçı direktoru COVID-19 virusu ilə mübarizə sahəsində müasir texnologiyalar üzərində iş aparıldığını dedi və bu sahədə ölkəmizlə əməkdaşlığa hazır olduğunu vurğuladı.

Prezident İlham Əliyev: Virus bütün ölkələrə təsir edib. Aydındır ki, o, yoxa çıxmayacaq, biz bu virusla yaşamalı olacağıq. Ona görə də düşünürəm ki, bu ehtiyat tədbirləri, əlbəttə, artıq bizim həyatımıza çox uzun müddətə daxil olub. Bu səbəbdən də bizim müasir, ən mürəkkəb texnoloji tələblərə cavab verən qabaqlayıcı vasitələrə ehtiyacımız var. Biz insanlarımızı qorumaq üçün əlimizdən gələni edirik. Lap əvvəldən biz çox mühüm qabaqlayıcı tədbirlər gördük, bu da bizə insanlarımızı qorumağa və minimum itki ilə bu vəziyyətdən çıxmaq üçün yol tapmağa imkan verdi. Bizim səylərimiz Azərbaycanı koronavirusa qarşı mübarizədə nümunə adlandıran Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də qiymətləndirilib. Əlbəttə ki, mən sizin bəşəriyyətin özünü qorumasına yardım etmək üçün texnologiyalar təşəbbüsünüzü tam dəstəkləyirəm. Şirkətin MDB üzrə baş meneceri Erik Benedetti Bakının müxtəlif hissələrinin, o cümlədən şəhərin mərkəzi tarixi hissəsinin müvafiq şəkildə işıqlandırılması ilə bağlı aparılan işlərdən danışdı.

Şirkətin Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə satış Meneceri Andrey Zaxarkiv Bakıda həyata keçiriləcək “Ağıllı şəhər” layihəsindən danışdı və pilot layihənin icrası üçün işlərin hazır olduğunu dedi.

Erik Rondolat kənd təsərrüfatında, o cümlədən heyvandarlıq, quşçuluq və əkinçilik sahələrində məhsuldarlığın əhəmiyyətli dərəcədə artırılması, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı, su istehlakının azaldılması sahələrində əməkdaşlıq məsələlərinə toxundu, ölkəmizlə bu istiqamətlərdə təcrübəni bölüşməyə hazır olduğunu dedi. Söhbət zamanı kənd təsərrüfatı sahəsində müasir texnologiyaların tətbiqi və bu işdə gənc kadrların hazırlanması məsələləri də müzakirə olundu. Prezident İlham Əliyev: Bu sahədə aparılan islahatlar sayəsində biz daha çox gəncin kənd təsərrüfatı üzrə mütəxəssis olmaq istədiyini və Aqrar Universitetdə bu peşəni seçmək istəyən gənclərin sayının artdığını görürük. Biz yeni elektron kənd təsərrüfatı sistemini həyata keçiririk. Bu, artıq bizə həyatımızın və iqtisadiyyatımızın mühüm sahəsinin səmərəliliyini artırmağa çox kömək edir. Çünki ölkə əhalisinin demək olar ki, 50 faizi kənd yerlərində yaşayır. Beləliklə, əminəm ki, bu, bizim birgə həyata keçirə biləcəyimiz çox mühüm yeni layihə ola bilər. Ümumilikdə, Azərbaycan yeni texnologiyalara, innovasiyalara hazırdır. Biz artıq bunun üçün əhəmiyyətli insan kapitalı yaratmışıq və bizim dövlət xidmətləri, sosial xidmətlərlə bağlı texnologiyalarımız bu gün bəzi başqa ölkələr tərəfindən istifadə olunur. Ona görə də biz yeni texnologiyalara tam açığıq, çünki onlar yeni miqyasa, dinamizmə, tərəqqiyə, iş yerlərinə və rifaha gətirib çıxarır.

Erik Rondolat: Təşəkkür edirəm cənab Prezident. Bilirəm ki, siz çox məşğulsunuz. Bizə bu səhər vaxt ayırdığınıza və Davosdakı son görüşümüzdən sonra işlərin olduqca sürətli həyata keçirilməsinə görə çox təşəkkür edirəm. Siz bizim şirkətə və şəxsən mənə arxalana bilərsiniz. Biz planlaşdırdığımız bütün birgə layihələri dəstəkləməyə hazırıq. Mən çox şadam ki, Siz ölkənizdə texnologiyaların inkişafına önəm verirsiniz. Çünki bir çox hallarda bəzi ölkələr texnologiyanın ölkənin inkişafı üçün bir vasitə olduğunu bilmir və ya buna əhəmiyyət vermir. Azərbaycanda isə Siz bu texnologiyaların çox mütərəqqi olduğunu nümayiş etdirirsiniz. Sizin vaxtınızı çox almaq istəmirik. Sizinlə danışmaq imkanına görə çox şadam və Azərbaycan Respublikasına tərəqqi arzulayıram. Bilirəm ki, bu ayın 28-i Respublika Günü qeyd edilir. Mən Ramazan ayının qeyd edildiyi bir ölkədə doğulmuşam və bilirəm ki, bu gün Ramazan ayının son günləridir. Bu münasibətlə də Sizi təbrik edirəm və bir daha dərin minnətdarlığımızı bildirirəm.

Prezident İlham Əliyev: Çox sağ olun. Çox təşəkkür edirəm. Mən bizim şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm, onlar nəticəyə hədəflənmiş münasibətlərdir. Düşünürəm ki, bu, insanların həyatını yaxşılaşdırmaq, iqtisadiyyatı gücləndirmək, resurslara qənaət etmək və kənd təsərrüfatında daha çox nəticə əldə etmək üçün sizin müasir texnologiyalarla bizim ölkənin bu texnologiyaların tətbiqində liderlərdən biri olmaq istəyinin çox yaxşı vəhdətidir. Mən bilirəm ki, sizin şirkətiniz bu sahədə dünyada aparıcı şirkətlərdən biridir. Ona görə də nə qədər çox yeni texnologiya ixtira etsəniz, birgə əməkdaşlığımız üçün bir o qədər çox imkan yaranacaq. Buna görə sizə təşəkkür edirəm. Tezliklə sizinlə şəxsən görüşməyə ümid edirəm.

Erik Rondolat: Mən də Cənab Prezident.

# Şuşada "andiçmə" mərasimi Paşinyanın həyasızlığının pik nöqtəsidir



**Elman Məmmədov,**
millət vəkili

**“Dağlıq Qarabağdakı separatçı qurumun “rəhbər”inin Xankəndidə yox, Şuşada “andiçmə”sinin keçirilməsinə və Ermənistanın baş naziri Nikol Paşinyanın burada iştirakına cavab verməyin yeganə bir yolu var.**

Bu gün Şuşa oraya yığışan ermənilərin qanına bələnməlidir. Mən belə hesab edirəm. Bu gün Azərbaycan Ordusu özünün imkanlarından istifadə edib Paşinyanqarışıq oraya yığışan bütün erməniləri məhv etməlidir”.

■ **Bunu hafta.az-a açıqlamasında millət vəkili Elman Məmmədov deyib. Millət vəkili bildirib ki, bu, artıq Ermənistan baş nazirinin və onun havadarlarının, eləcə də separatçıların timsalında həyasızlığın, saymazlığın pik nöqtəsidir:** “Nikol Paşinyan bir şərh verib. Həmin şərhində deyir ki, xalq müharibə yolu ilə itirdiyi torpaqları dilənməklə geri qaytarmamalıdır. Savaşaraq torpaqlarını geri almalıdır, - deyir. Bildirir ki, onlar Azərbaycan torpaqlarını müharibə yolu ilə alıblar. Söyləyir ki, ala bilirlərsə, gəlib torpaqlarını alsınlar. Bu o deməkdir ki, düşmən bizə meydan oxuyur. Düşmən bizim zəif olduğumuz dövrdə məlum qüvvələrin, dövlətlərin köməyi ilə işğal edib. Ancaq bu gün biz zəif deyilik. Hazırda güclü Azərbaycan dövləti var. Güclü orduya sahibik. Ordumuz bu gün çox yüksək səviyyəli döyüş qabiliyyətinə malikdir. Buna görə də düşmənin nazı ilə oynamaq, onların hər yaramaz hərəkətlərinə bəyanatla, nota ilə, etirazla cavab vermək vaxtı çoxdan keçib. Bu gün Azərbaycan Ordusu düşməni məhv edib ərazilərimizi geri qaytarmalıdır. Ərazi bütövlüyümüz təmin olunmalıdır”.

Millət vəkili bildirib ki, bu illər ərzində beynəlxalq qurumların Azərbaycana verdiyi məsləhətlərin məzmunu dəyişməyib: “1993-94-cü illərdən bu günə qədər həmin beynəlxalq qurumlar - başda Birləşmiş Millətlər Təşkilatı, ATƏT və başqaları olmaqla - həmsədr dövlətlər bu 27-28 il ərzində ancaq bizə bir məsləhət verirlər. Deyirlər ki, müharibə etmək lazım deyil. Bunun müharibə yolu ilə həlli yoxdur. Münaqişənin sülh və danışıqlar yolu ilə həll olunmasını istəyirlər. Hesab edirəm ki, bizə bu məsləhəti verən beynəlxalq qurumlar və dövlətlər ermənilərin yanında olan və Ermənistanı müdafiə edənlərdir. Bunlar vaxtaşırı boğazdanyuxarı bəyanatlar verirlər. Azərbaycanla əməkdaşlıq etdiklərini deyirlər. Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşırıq - fikrini səsləndirirlər. Mən də deyirəm ki, yalançıya Allah lənət eləsin. Əgər siz Azərbaycanın ərazisinə hörmətlə yanaşırsınızsa, 30 ildən artıqdır ki, vaxtilə etdiyiniz köməklə Azərbaycanın ərazi bütövlüyü pozulub. Bu gün də torpaqlarımızın işğal altında qalmasının, ərazi bütövlüyümüzün pozulmasının müdafiəçilərisiniz. Kim ki bizə o məsləhəti verirsə, mən onu da ermənipərəst düşmən hesab edirəm. Ermənilərin yaramazlığının, fitnəkarlığının, işğala son qoymalarının bircə yolu var, hərbi gücümüzü tətbiq edib, ərazilərimizi düşməndən azad eləməliyik. Ərazi bütövlüyümüz təmin olunmalıdır. Vəssalam, başqa yol yoxdur. Əgər biz bunu eləməsək, baş verənlərə son qoya bilməyəcəyik. 1991-ci ildən bu yana - Dağlıq Qarabağda qondarma qurum yarandığı gündən Ermənistanın rəhbərləri oraya istədikləri kimi gedib-gəlirlər.

Biz bunun qarşısını almalıyıq. Son qoymalıyıq. Bunun da yeganə yolu Azərbaycan Ordusunun zəfər yürüşüdür. Bu günlərdə ordumuzun çox yüksək səviyyədə təlimləri keçirilir. Çox istərdim ki, həmin təlimlərin torpaqlarımızın azad edilməsi üçün hərbi əməliyyatlara çevrildiyini eşidək. Mənim kimi düşünənlərin hamısı bunu gözləyir”.

■ **Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri Tural Gəncəliyev açıqlama yayıb. İcmadan hafta.az-a daxil olan açıqlamada deyilir:**

”Dünən - 21 may tarixində Ermənistan ən yüksək səviyyədə sülh prosesinə zərbə vuran bir addım ataraq, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin erməni icmasına özünün təşkil etdiyi qanunsuz “seçki” şousu ilə təyin etdiyi qondarma “prezident” üçün, qondarma “andiçmə mərasimi” təşkil etdi. Bu təxribat Ermənistan siyasi rəhbərliyinin ən yüksək səviyyədə təmsilçiliyi ilə Azərbaycanın işğal olunmuş Şuşa şəhərində, ”Azərbaycan” kinoteatrının binasında təşkil edildi.

Bütün addımlar - qondarma “seçki” şousu, qondarma “andiçmə” tədbiri və ən əsası bu tədbirin Azərbaycan üçün xüsusi mənəvi önəmi olan yerdə - Şuşada təşkili bir məqsədə xidmət edirdi - sülh danışıqlarının nəticəsiz qalmasını təmin etmək.

Hətta dünən təşkil edilən “tədbir” o qədər mənasız və əsassız idi ki, qondarma rejimin yeni oyuncaq “rəhbəri” öz çıxışında Ermənistan baş nazirinin 2019-cu ilin avqustunda Xankəndində səsləndirdiyi “Qarabağ Ermənistandır, nöqtə” ifadəsini eynilə təkrar etdi. Belə ola halda sual olunur ki, əgər Qarabağ Ermənistandırsa, sən kimsən? Cavab isə əslində çox aydındır, Ermənistan tərəfindən münaqişənin mahiyyətini təhrif etmək məqsədilə işğal edilmiş Azərbaycan ərazilərinə təyin olunmuş qondarma nümayəndə. Qətiyyətlə bildiririk ki, Ermənistan siyasi rəhbərliyinin bu oyunları nəticəsiz qalacaq. Münaqişənin mahiyyəti ən yüksək səviyyədə hüquqi təsdiqini BMT və digər beynəlxalq təşkilatların qətnamə və bəyanatlarında tapmışdır. ATƏM-in (indiki ATƏT) 1992-ci ilin mart ayında Helsinkidə keçirilən sammitinin yekun sənədində aydın göstərildiyi kimi, Ermənistan və Azərbaycan Respublikaları münaqişə tərəfləri, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları isə münaqişənin maraqlı tərəfləridir. Ermənistan tərəfindən işğal olunmuş Qarabağ bölgəsi Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və bu dəyişdirilə bilməz. Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsində də göstərildiyi kimi, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir.



**Tural Gəncəliyev,**
Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri

Bir daha bəyan edirik ki, Ermənistan - Azərbaycan münaqişəsi yalnız Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü çərçivəsində, işğalçı Ermənistan ordusunun Azərbaycanın işğal altındakı ərazilərindən çıxarılması və öz torpaqlarından didərgin düşmüş azərbaycanlı məcburi köçkünlərin bütün işğal olunmuş ərazilərə geri qayıtmasından sonra həll oluna bilər. Bölgədə davamlı və ədalətli sülhün təmini isə yalnız Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində erməni və azərbaycanlı icmalarının Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü çərçivəsində, sülh şəraitində birgə yaşayışı ilə mümkündür. Bu bizim üçün qırmızı xətdir və regionda sülhün təmin olunması üçün başlıca şərtdir”.

✍ ***Tural***

# “Liberal dəyərlər işğal və etnik təmizləmə siyasəti üzərində qurula bilməz”

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin “Eurasia Review” nəşrində Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirilmiş qondarma inauqurasiya mərasiminə dair “Liberal dəyərlər işğal və etnik təmizləmə siyasəti üzərində qurula bilməz” adlı məqaləsi dərc olunub.**



Hafta.az-ın yazdığına görə, məqalədə bildirilir ki, Azərbaycanın işğal olunmuş torpaqlarında martın 31-i və aprelin 14-də keçirilmiş seçkilər bir çox beynəlxalq aktor və ölkələr tərəfindən pislənib: “Bu seçkilər BMT Təhlükəsizlik Şurasının qərarlarına zidd olaraq Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış tanınmayan siyasi quruluşu legitimləşdirmək istiqamətində növbəti uğursuz cəhddir”.

Müəllif əlavə edir ki, yerli qondarma rəhbərlik Qarabağ regionunda aşkar edilmiş koronavirus infeksiyasının insanlar üçün yaratdığı təhlükəni görməzdən gəldiyi üçün seçkilərin keçirildiyi vaxt da geniş şəkildə tənqid olunub: “Seçkilər yerli icmanın vacib hissəsi olan azərbaycanlıların etnik təmizləmə yolu ilə qovulduğu bölgədə keçirilib. Bu insanlar indi də öz rayonlarına giriş imkanlarından məhrum edilib. Bu vəziyyət BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal çıxarılmasını tələb edən 4 qətnaməyə rəğmən davam edir”. Bildirilir ki, Azərbaycan hökuməti də bu “seçkilər”i pisləyib və bir daha bəyan edib ki, Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılması, azərbaycanlıların doğulduğu torpaqlara geri qayıtması və regionun erməni və azərbaycanlı icmaları arasında dialoq və əməkdaşlığın bərpa olunmasından sonra hansısa seçkilər keçirilə bilər. Məqalədə qeyd olunur ki, Avropa İttifaqı, Qoşulmama Hərəkatı, NATO, ATƏT və digər beynəlxalqa təşkilatlar Azərbaycanın narahatlıqlarını bölüşərək seçkiləri tanımaqdan imtina ediblər. Eyni zamanda bu mövqe ATƏT-in Minsk qrupu həmsədrləri tərəfindən də nümayiş olunub və onlar bu seçkiləri Dağlıq Qarabağın hüquqi statusuna təsir kimi qəbul etmədiklərini bəyan ediblər. “Bu insanlar nəinki qeyd edilin beynəlxalq sənədlərə, həmçinin siyasi sistemin demokratik olmasına imkan verən inklüziv vətəndaşlıq prinsiplərinə məhəl qoymurlar. Yerli icmanın “arzuolumaz” seqmenti hesab etdikləri etnik azərbaycanlıları qovmaqla ermənilər onların fundamental hüquqlarını görməzdən gəliblər və regionda hansısa demokratiyaya yer saxlamayıblar”, - deyə F.Şəfiyev bildirib. Müəllif, həmçinin beynəlxalq ekspertlərin post-sovet məkanında mövcud olan münaqişələrə qarşı ikili standart nümayiş etdirmələrindən bəhs edib. “Liberal dəyərlər qanunsuz işğal üzərində qurula və azərbaycanlı icmanın Dağlıq Qarabağdan qovulması ilə uzlaşa bilməz. Nə qədər ki, beynəlxalq ictimaiyyət və ekspertlər bu və ya digər etnik-ərazi münaqişələrinə kökündən yanlış olan yanaşmalarını nəzərdən keçirməyəcəklər və prinsipial mövqenin nümayiş etdirilməli olduğu həmin yerlərdə “neytrallıq” axtarışında olacaqlar sülhə nail olmaq çox çətin olacaq”.

✍ ***Vüsal Tağıbəyli***

# “Dövlət vəsaitini mənimsəyənlərə heç bir güzəşt edilməməlidir”

**“Dövlət vəsaitini mənimsəyənlər qanun qarşısında cavab verməlidirlər ki, bu digərlərinə də dərs olsun. Mən bu həbslər haqqında eşidəndə dəhşətə gəldim.**

Bu dərəcədə harınlıq, dövlətə bu dərəcədə ziyan vurulması məni çox qəzəbləndirdi. Xalqın malını oğurlamağa, dövlətin büdcəsinə ziyan vurmağa kimsə cəsarət tapırsa, bu, sadəcə olaraq, anlaşılan deyil”.

■ **Bunu hafta.az-a açıqlamasında millət vəkili, Ana Vətən Partiyasının (AVP) sədri Fəzail Ağamalı deyib. Millət vəkili bildirib ki, dövlət vəsaitini mənimsəyənlərə heç bir güzəşt edilməməlidir:** “Onlar sadəcə, həmin pulun qaytarılması ilə məsuliyyətdən azad edilməməlidir. Onlar qanun qarşısında cavab verməlidirlər ki, bu, digərlərinə də dərs olsun.



**Fəzail Ağamalı,**
Ana Vətən Partiyasının (AVP) sədri, millət vəkili

Bu proseslərin arxasında böyük maliyyə maxinasiyaları durur. Manatın devalvasiyasından sonra bir sıra iş adamları dolları manata dəyişməklə külli miqdarda vəsait əldə etdilər. Xalqın malını talayanlar da yaranmış situasiyadan istifadə edib, dövlətin pulu ilə daha çox varlanmağa çalışıblar. Bunun indi üzə çıxarılması isə istintaqın məntiqindən doğur. Araşdırmalar aparılıb, fırıldaqçılar ifşa olunub və onlar qanun qarşısında cavab verməlidirlər”.

✍ ***Tural***

# "Niderlandda virusa yoluxmuş azərbaycanlılar, artıq sağalıblar"

***Niderland Avropanın ən inkişaf etmiş, əhalisi rifah içində yaşayan, hüquqların ciddi qorunduğu, qısaca desək, xoşbəxt insanların yaşadığı dövlət olaraq tanınır. Elə buna görə də bütün ölkələrdən olduğu kimi, Azərbaycandan da çox sayda insan yaşamaq üçün ora köçüb. Təəssüf ki, dünyanın gününü qaraldan koronavirus pandemiyası bu ölkəyə də bədbəxtlik gətirib.***



Çoxsaylı yoluxma halları var, ölüm faktları da çoxdur, amma hər şeyin yaxşı sonluqla bitəcəyinə dair ümidlər də az deyil. Bu ölkədə fəlaiyyət göstərən "Azərbaycan Evi"nin sədri Elxan Mirhəşimli ilə söhbətləşdim. O da ağır vəziyyətdən ürəkağrısı ilə söz açdı, amma ümidləri böyükdür, hər şeyin mütləq yaxşı olacağını düşünür. Buyurun, müsahibəyə birlikdə nəzər salaq:

- Niderlandda iyunun 1-dən etibarən orta məktəblər açılacaq, kafe və restoranlar, digər iaşə obyektləri fəaliyyətini bərpa edəcək. Düzdür, hər hansı ictimai xarakterli tədbirin keçirilməsi sentyabrın 1-dək mümkün deyil, amma dövlət yaranmış bütün problemləri mərhələli şəkildə həll etməyə çalışır. İctimai nəqliyyatda, metroda - əhalinin sıx olduğu hər yerdə insanlar maska taxmağa məcburdurlar və bunu etməyənlər cərimələnəcəklər. Hesab edirəm ki, ikinci dalğa olmasa həyat normala dönəcək. Avropa ölkələri öz aralarında sərhədləri açmağa başlayıblar. Hazırda vəziyyət tam normallaşmağa doğru gedir - yoluxma sayı və ölüm faktları hissediləcək şəkildə azalmaqdadır.

***- Niderland kifayət qədər yüksək yoluxma və ən çox ölüm halları qeydə alınan ölkələrdəndir. Bu ölkədə yaşayan bir insan olaraq ümumi vəziyyəti necə qiymətləndirirsiniz?***

- Niderland koronavirusa yoluxan və vəfat edənlərin sayına görə Avropada ən böyük zərbə alan dövlətlərdən biridir. Bu saata olan məlumata görə, ölkədə ölənlərin sayı 5 715, ümumi yoluxanların sayı isə 44 249 nəfərdir. Bu arada qeyd edim ki, açıqlanan rəqəmlər, ancaq rəsmi statistikada qeyd edilənlərdir. Hansı ki, Niderlandda evdə ölənlər rəsmi rəqəmlərə əlavə olunmurlar. Niderlandlı həkimlərin qənaətincə, ölkə üzrə evlərdə ölənlərin sayı 764 nəfərdir. Belə çıxır ki, bu rəqəmlər üst-üstə gəlsə, ölkədə ölənlərin ümumi sayı 5 715 yox, 6 479 nəfərdir.

***- Bildiyim qədər, Niderland miqrasiya zamanı azərbaycanlıların ən çox seçdiyi yerdir. Sizcə, orada, təxminən, nə qədər azərbaycanlı yaşayır və pandemik şəraitdə onların vəziyyəti necədir, aralarında yoluxma və ya ölüm halları qeydə alınıbmı?***

- Niderlandda yaşayan azərbaycanlıların rəsmi sayı 18 min nəfərdir. Bu insanlar Azərbaycan Respublikasından gələnlərdir. İğdır, Qars, Güney Azərbaycandan gələnləri də əlavə eləsək, Niderlandda yaşayan azərbaycanlıların sayı 30 mini ötür.

Təbii ki, koronavirus pandemiyası insanları milliyyətinə görə seçmir - yoluxmuş niderlandlılar arasında azərbaycanlılar da var. Amma sayları elə də çox deyil - 4-5 nəfər. Onlar da müalicə ediliblər, hazırda vəziyyətləri çox yaxşıdır. Şükür ki, virusdan ölüm halı qeydə alınmayıb soydaşlarımız arasında. Düzdür, bir azərbaycanlı dünyasını dəyişib, amma koronavirusdan yox, sadəcə intihar edib. Polis araşdırma aparır, onun pandemik şəraitdə stress keçirdiyi, tək qaldığı üçün təşvişdən intihar etdiyi güman olunur.

***- Baxın, deyirsiniz ki, azərbaycanlı gənc stresdən intihar edib. Deməli, soydaşlarımızın maarifləndirilməsi lazımdır, onlarla vaxtaşırı təbliğat işləri aparılmalıdır. Bu yönümdə, Niderlanddakı diaspor təşkilatlarımız hər hansı iş görürlərmi, soydaşlara yardım edə bilirmi?***

- Niderlandda yaşayan hər hansı azərbaycanlıya yardım etməyə ehtiyac yoxdur. Bu ölkədə yaşayan bütün insanlara dövlət lazım olan yardımları maksimum şəkildə verir. Mənəvi dəstək məsələsinə gəlincə, əlbəttə, ehtiyacı olanlarla söhbət edib, dəstək oluruq.

***- Bu məsələdə səfirliklə hər hansı təmasınız olurmu?***

- Hə, əlbəttə. Səfirliklə sıx əməkdaşlıq içindəyik. Hətta səfirlikdə qaynar xətlər də yaradılıb, diaspor təşkilatlarının da mobil telefon nömrələri var, kimin ehtiyacı varsa, hər hansı sualı yaranırsa müraciət edə bilərlər. Səfirlik də, biz təşkilatlar da imkanımız daxilində köməklik göstərməyə çalışırıq.

***- Xalq olaraq həmişə dara düşən ölkələrin yanında olmuşuq. Bu prizmadan yanaşsaq, Niderlanddakı milli təşkilatlarımız və ya ayrı-ayrı imkanlı soydaşlarımız ümumilikdə ölkə əhalisinə hər hansı yardım-filan göstərirmi?***

- Niderland əhalisinə milli təşkilatların yardımı fərdi şəkildə olur. Məsələn, mən qonşuluqda yaşayan yaşlı və xəstə insanlara, dükana gedərkən onların da istədikləri nələrisə alıb gətirirəm, qapıda pulunu ödəyirlər. Yəni şəxsən mən insanlara bu cür dəstək ola bilirəm. Bildiyim qədər, bu cür xidməti Niderlandda yaşayan çox sayda azərbaycanlı göstərir. Ümumiyyətlə, Niderland sosial təminatlı dövlətdir, əhaliyə, xüsusilə də yaşlılara və aztəminatlı ailələrə çox yüksək səviyyədə yardım edilir. Bu səbəbdən də buradakı milli təşkilatlara elə böyük iş qalmır.

Amma qeyd edim ki, Niderlandda fəaliyyət göstərən milli təşkilatlar pandemiyadan əziyyət çəkən Azərbaycanda yaşayan aztəminatlı ailələrə yardımlar ediblər. O cümlədən, Ramazan bayramında da daha bir yardım kampaniyası olacaq.

***- Maraqlıdır, Niderlanddakı təşkilatlar Azərbaycanda yardımı kimlərin vasitəsilə və hansı əsaslarla paylayırlar, ailələri necə tapırlar? Eləcə də aksiya, ancaq paytaxt Bakıda olur, yoxsa bölgələrə də aiddir?***

- Facebook üzərində müraciət edən ailələr var, Azərbaycanda yaşayan dostlardan xahiş etdim onlara yardim çatdırdılar. Niderlandda fəaliyyət göstərən milli diaspor təşkilatları da bu vasitələrlə köməklik ediblər və Ramazanda eyni cür yardım paylanılacaq.

Niderlandda yaşayan azərbaycanlılar öz aralarında vəsait toplayıblar, koordinasiya şurası tərəfindən tanıdıqları ailələrə göndəriləcək.

***- Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) saytına baxıram, 18 milyon nəfər əhalisi olan Niderland ortalama 45 min yoluxma sayı və 6 min civarında ölüm faktı Avropada ən böyük zərbə alan ölkələrdəndir. Üstəlik, Niderlandda virusdan sağalan insanların sayının az olması və hətta son vaxtlar ümumiyyətlə bu müstəvidə məlumatın ÜST-nin səhifəsində yerləşdirilməməsi şübhə yaradır. Bu məsələyə münasibətinizi bilmək istərdim...***

- Koronavirus yeni tip virus olduğu üçün onun hazırda müalicə üsulları - dərmanı yoxdur. Bildiyim qədər, Niderland həkimləri malyariya, revmantizm, qan plazması, ürək xəstəlikləri, bağırsaq immun sistemini yüksəldən və sair kimi müalicə üsullarından yararlanaraq insanlara yardım etməyə çalışırlar. Hazırda bu cür müalicələrlə böyük uğurlar qazanılıb. Üzücü hallar da az olmur, daha yaşlı və xəstə insanlar həyatını itirir.

Mütəxəssislər dünya əhalisinin üçdənikisinin bu virusa yoluxacağını bildirirlər. Nə qədər ki, vaksin tapılmayıb, səhiyyəsi ən güclü olan ölkələr də bu pandemiyanın qarşısında acizdir. Ona görə də nə qədər çətin olsa da, insanlar bir müddət bu virusla birlikdə yaşamağa məcburdurlar.

***- Niderland azərbaycanlıları olaraq Azərbaycan dövlətindən bu məsələdə gözləntiləriniz varmı?***

- Bir sıra xırda texniki problemlərimiz var. Ümid edirəm, Diasporla İş üzrə Dövlət Komitəsi bu məsələləri tezliklə həll edəcək. Niderlanda təyyarə reyslərinin bərpasını istəyirik, tranzit uçuşlar bizi çox yorur. Həmçinin birbaşa reyslər turizmin inkişafina da öz töhfəsini mütləq verəcək. İstəyirik ki, Azərbaycanın Təhsil Nazirliyi bura oxumağa gələn tələbələrin Niderland - Azərbaycan Evi Gənclər təşkilatı ilə əməkdaşlıq etmələrini təşviq etsin. Əvvəldə də dedim: gənc tələbənin tək, nəzarətsiz, qayğılar içində qalaraq intihar etməsi faktı bu boşluğu doldurmağın vacib olduğunu göstərir. Əgər onlar bizim təşkilatla əlaqədə olsalar, özlərini tək hiss etməzlər, hər zaman yanlarında olarıq. İndiki pandemiya şəraitində bizə müraciət edən yaşlı nəsil soydaşlarımız var ki, vəfat etdikdə, Azərbaycanda dəfn olunmalarını istəyirlər. Bu məsələdə böyük çətinliklər var, həll olunmalıdır.

*✍ Vüsal Tağıbəyli*

# "Çin və Azərbaycan epidemiya əleyhinə beynəlxalq əməkdaşlıqda fəal rol oynayır"

**Çin hökuməti koronavirusla mübarizəyə dəstək məqsədilə Azərbaycana ikinci yardım dəsti göndərib. Hafta.az yazır ki, təhvil-təslim mərasimində Çinin ölkəmizdəki səfiri xanım Quo Min və Azərbaycan tərəfindən Səhiyyə nazirinin müavini Viktor Qasımov, digər rəsmi şəxslər iştirak ediblər.**

Tədbirdə səfir xanım Quo Min ürək sözlərini Azərbaycan nümayəndələri ilə paylaşıb. Səfir deyib ki, baharın gəlişi, təbiətin çiçəkləndiyi və canlandığı bir vaxtda, onlar Azərbaycanın Səhiyyə Nazirliyində Çin hökumətinin epidemiya əleyhinə yardım layihəsi çərçivəsində göndərdiyi antiepidemik vasitələrin ikinci və üçüncü dəstlərinin təhvil-təslim mərasimində iştirak edirlər.

"İlin əvvəlindən bəri, qəfil gələn COVİD-19 epidemiyası bütün dünyada yayılıb və 200-dən çox ölkə və bölgəyə fəlakət gətirib. İndiyədək epidemiyaya yoluxmuş şəxslərin ümumi sayı 5 milyona yaxındır, ölənlərin sayı isə 300 mindən çoxdur. Bu epidemiya hər kəsin həyatını dəyişdirdi, hər bir ölkənin idarəetmə sistemini və qabiliyyətini sınadı. Epidemiya ilə mübarizədə Çin Azərbaycanla birgə ikitərəfli və çoxtərəfli səviyyədə qarşılıqlı olaraq bir-birlərini yaxından dəstəkləyib və əməkdaşlıq edib, bir-birilərini müdafiə edib çətin vaxtlarda köməkləşərək, epidemiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın təşviqinə, dünya təhlükəsizliyinin qorunmasına və maraqların inkişafına mühüm töhfələr veriblər. İkitərəfli səviyyədə, hər iki ölkənin hökumətləri və xalqları yan-yana mübarizə aparır, ölkə rəhbərləri bir-birlərinə rəğbət məktubları göndərir, epidemiyanın qarşısının alınması istiqamətində təcrübə mübadiləsi aparır, qarşılıqlı maddi yardımlar edərək, bu kimi bir çox vasitələrlə bir-birlərinə dəyərli dəstək və yardım göstərirlər.



Bu, Çin və Azərbaycanın yüksək siyasi qarşılıqlı etimadını, dərin ənənəvi dostluğunu və ortaq inkişaf fəlsəfəsini ortaya qoyur. Beynəlxalq arenada Çin və Azərbaycan çoxtərəflilik prinsipə riayət edir, epidemiya əleyhinə beynəlxalq əməkdaşlıqda fəal rol oynayır, regional güclərin vəzifə və məsuliyyətlərini nümayiş etdirir", - deyən xanım Quo Min əlavə edib ki, ölkəsi üçün ən çətin vaxtda Azərbaycan hökuməti və müxtəlif dövlətlərdən olan dostlar Çinə müxtəlif formalarda güclü dəstək veriblər.

Səfir bildirib ki, Çin hökuməti bu yaxşılığa cavab olaraq, bir-birinin ardınca Azərbaycana epidemiya əleyhinə yardım layihəsi çərçivəsində antiepidemik vasitələrin üçüncü dəstini verib. Bura 5 min ədəd epidemiya aşkarlayıcı test, 10 qeyri-invaziv süni tənəffüs aparatı, 3 500 dəst tibbi qoruyucu geyim, 600 min birdəfəlik tibbi maska, 50 min tibbi KN95 maskası və sair aiddir. Bundan əlavə, Şanxi əyalətinin Xian şəhəri, Siçuan əyalətinin Mianyang şəhəri, Zhejiang əyalətinin Quzhou şəhəri, Çongqing əyalətinin Jiangjin şəhəri, eləcə də Çinin digər yerli əyalət və şəhərləri, həmçinin Huawei Azerbaijan Technology Co, Ltd şirkəti, Ma Yun ictimai rifah fondu, Alibaba ictimai rifah fondu və sair kimi müəssisələr və qeyri-hökumət təşkilatları, Azərbaycana epidemiya ilə mübarizədə əməli töhfələr verərək, çox sayda epidemiyanın qarşısının alınması materiallarını Bakıya göndərmək üçün fəal tədbirlər görüblər.

"Bu gün mən nazir müavini Viktor Qasımovla birgə Çin Xalq Respublikası Hökumətinin Azərbaycana epidemiya əleyhinə yardım layihəsi üçün gətirilmiş antiepidemik vasitələrin ikinci və üçüncü dəstinin təhvil-təslim aktını imzalayıram. Ümid edirəm ki, bu tibbi ləvazimatlar Azərbaycana epidemiyanı ən qısa müddətdə aradan qaldırmağa kömək edə bilər! Cənab sədr Si Tszinping, yenicə yekunlaşmış 73-cü Ümumdünya Səhiyyə Assambleyasında bu cür vurğuladı: bəşər sivilizasiyasının tarixi həm də xəstəliklərə və fəlakətlərə qarşı mübarizə tarixidir. Virusun heç bir sərhədi yoxdur və xəstəliklər irqi ayırd etmir. Bu dəhşətli epidemiya qarşısında bütün ölkələrin insanları cəsarətlə irəliləyir, bir-birlərinə vaxtında və çətin zamanlarda kömək göstərir, dünya xalqlarının böyük sevgisini nümayiş etdirir və epidemiyaya qarşı mübarizə üçün böyük güc toplayırlar. Çin həmişə bəşəriyyət üçün ortaq bir gələcəyi olan bir cəmiyyət qurma konsepsiyasına sadiq qaldı və təkcə öz xalqının təhlükəsizliyi və sağlamlığı üçün deyil, həm də qlobal ictimai sağlamlıq üçün məsuliyyət daşıyır. Birlik və əməkdaşlıq beynəlxalq ictimaiyyətin epidemiyanı aradan qaldırmaq üçün ən güclü silahıdır. Çin Ümumdünya Səhiyyə Təşkilatının rəhbərliyi və koordinasiyası altında beynəlxalq ictimaiyyət, o cümlədən Azərbaycanla sıx əməkdaşlıq etməyə, COVİD-19 epidemiyasına qarşı mübarizə aparmaq üçün Çin müdrikliyi və proqramları ilə köməyə davam etməyə, dünya xalqlarının təhlükəsizliyini və sağlamlığını qorumağa səylə çalışmağa, qlobal ictimai səhiyyənin sürətli inkişafını təşviq etməyə hazırdır", - deyib səfir Quo Min. Xanım diplomat sonda vurğulayıb ki, bir neçə gün sonra Azərbaycan Respublika Gününü qeyd edəcək, Odur ki, fürsətdən istifadə edərək, qardaş Azərbaycan xalqının bayramını səmimi qəlbdən təbrik edir, onlara xoş arzular, firavanlıq və əminamanlıq diləyir.

***✍ Vüsal***

## GÜNÜN TƏZADLARI

### Karantini pozan mer polisin qorxusundan tabuta girdi



**■ Perunun Tantara şəhərinin meri Xayme Ronaldo Urbina Torres içkili vəziyyətdə karantin rejimini pozdu.**

Hafta.az xəbər verir ki, hadisə mayın 21-də axşam baş verib. Ölkədə tətbiq edilən karantin rejimində dostları ilə içki məclisindən qayıdan şəhər meri polisin reyd keçirdiyini görüb. İçkili olduqlarını polisin bilməməsi üçün mer və dostları tabutun içərisinə girərək özlərini ölmüş kimi qələmə veriblər. Əvvəlcə polis onların koronavirusdan öldüklərini zənn edib. Tabutların polis məntəqəsinə gətirilməsindən sonra bütün gerçəklər üzə çıxıb. Şəhər merinin üzündə maska tabutda uzanmış vəziyyətdə fotoları ölkə mətbuatında yayımlanıb. Qeyd edək ki, Peru Prezidenti Martin Viskarra ölkədə karantin rejimini mayın 24-dək uzadıb.

### Şabranda 11 yaşlı oğlan yelləncəkdə boğulub öldü



**■ Şabranda bədbəxt hadisə baş verdi. Hafta.az yazır ki, 2009-cu il təvəllüdlü Əli Məlikli yelləncəkdə yellənərkən kəndir boğazına dolanıb.** Azyaşlı Şabran Mərkəzi Rayon Xəstəxanasına çatdırılsa da onun həyatını xilas etmək mümkün olmayıb. Faktla bağlı araşdırmalar davam etdirilir.

### Bir kəndin komet partlamasından yoxa çıxdığı bilindi



**■ 12 min 800 il əvvəl atmosferdə partlayan kometin Suriya ərazisindəki Əbu Hüreyra kəndini məhv etdiyi üzə çıxdı.**

Hafta.az xəbər verir ki, bu barədə "Nature" nəşrində məqalə dərc olunub. Arxeoloqlar partlayış nəticəsində dünyanın hər tərəfinə səpələnən alov yağışı nəticəsində yaranan ərimiş şüşədən ibarət kürələr tapıblar. Tapılan kürələrə əsasən, kometin partlaması ilə Əbu Hureyra kəndinin böyük bir hissəsinin məhv olunduğu qənaətinə gəlinib.

### Oğuzda itkin düşən 12 yaşlı uşağı ayı parçaladı



**■ Mayın 21-də Oğuz rayonunun Xaçmaz kəndində itkin düşən 12 yaşlı oğlanın meyitinin qalıqları tapıldı.**

Hafta.az xəbər verir ki, kəndin yaxınlığındakı meşəlik ərazidə 2008-ci il təvəllüdlü Cəbrayıl Vüsal oğlu Məmmədlinin sümükləri aşkarlanıb. Ötən gün axşam saatlarında isə oğlanın velosipedi həmin yerin yaxınlığında aşkar edilmişdi. Kənd sakinlərinin bildirdiyinə görə, ərazidə ayılar sıx yaşayır və 12 yaşlı Cəbrayılı də ayı parçalayaraq öldürüb. Bundan əvvəl Cəbrayıl Vüsal oğlu Məmmədovun bostan sahəsini suvarmaq üçün ərazidən keçən çay qırağına gedib və bir daha geri qayıtmaması haqda məlumat yayılmışdı.

### Göygöldə qardaş 68 yaşlı bacısını döydü



**■ Göygöl rayonunda yaşlı qadın döyüldü.** Hafta.az yazır ki, hadisə rayonun Toğanalı kəndində qeydə alınıb. Kənd sakini, 68 yaşlı F.Həsənova qardaşı tərəfindən döyülüb. Müxtəlif bədən xəsarətləri alan yaşlı qadın xəstəxanaya aparılıb. Hadisənin təfərrüatları araşdırılır.

### Saatlıda 44 yaşlı kişi hasarın altında qalıb öldü



**■ Saatlı sakini daş hasarın altında qalaraq dünyasını dəyişdi.** Hafta.az xəbər verir ki, hadisə rayonun Sarıcalar kəndində baş verib. Kənd sakini, 1976-cı il təvəllüdlü Cəfərov İlqar Ağalar oğlu yaşadığı evin hasarını hörən zaman hasar uçub. İ.Cəfərov hasarın altında qalaraq ölüb. Faktla bağlı araşdırma aparılır.

*✍ Sultan Laçın*

# Tramp qoruyucu maska taxdığını etiraf edib



**ABŞ Prezidenti Donald Tramp jurnalistlərə qoruyucu maska taxmağa başladığını deyib.** Donald Tramp bu barədə Miçiqan ştatının İpsilanti şəhərində COVID-19 infeksiyası ilə mübarizədə istifadə olunacaq respirator və digər tibbi avadanlıqların istehsalı üçün uyğunlaşdırılan "Ford" zavodunu ziyarət edərkən bildirib.

"Ford" kompaniyasının daxili qaydalarına, həmçinin ABŞ administrasiyasının tövsiyəsinə əsasən, belə obyektlərdə qoruyucu maska taxmaq lazımdır.

Qeyd edək ki, Donald Tramp indiyədək qoruyucu maskada cəmiyyət qarşısına çıxmamışdı. O, bir müddət öncə bu hərəkətini özünü tibbi maskada dünya lideri qismində təsəvvürə gətirmədiyi ilə izah etmişdi.

# “Bəzi ölkələr cüzi təzyiq etməklə Qarabağda qətllərə mane ola bilərdilər”

***“İslam dünyasının Fələstin, Kəşmir və Qarabağ kimi dərin yaraları var. Odur ki, Müsəlman aləmi bu yaralara dərman tapmaq üçün səfərbər olunmalıdır. Məncə, müsəlmanlar arasında vəhdət və həmrəyliyə nail olmaqdan başqa daha faydalı və təsirli dərman yoxdur”. İranın ölkəmizdəki səfirliyindən Hafta.az-a daxil olan məqaləyə görə, bu fikirlər İranın ali dini rəhbəri Ayətullah Əli Xamneyiə məxsusdur.***



Məqalədə deyilir ki, İran İslam Respublikası yarandığı gündən müsəlmanlar arasında həmrəyliyin möhkəmlənməsinə çalışıb. “Həzrət Peyğəmbərin (s) mövludu günlərinin “Vəhdət həftəsi” adlandırılması, müsəlmanların ilk qibləsini işğal edənlərə qarşı mübarizənin koordinasiyası məqsədilə İmam Xomeyni tərəfindən Ramazan ayının son cümə gününün Beynəlxalq Qüds Günü elan edilməsi, Ayətullah Xamneyi tərəfindən İslam məzhəblərinin yaxınlaşdırılması assambleyasının yaradılması və Beynəlxalq vəhdət həftəsi konfranslarının müntəzəm şəkildə keçirilməsi İran rəhbərlərinin bu barədə təsirli fəaliyyətlərindəndir” deyilən məqalə “İslam həmrəyliyi və Qarabağ” mövzusunda təqdim olunub.

Məqalədə bildirilir ki, Ayətullah Xamneyi dünyanın ən nüfuzlu şəxsiyyətlərindən biri kimi, İslam ölkələrinin və təşkilatlarının, xüsusilə İslam Əməkdaşlıq Təşkilatının potensialından istifadə edilməsini vacib sayıb. O, 1997-ci il dekabrın 9-da İranda keçirilən İslam ölkələri rəhbərlərinin səkkizinci sammitinin açılış mərasimində etdiyi çıxışında Qarabağ münaqişəsinə işarə edərək deyib ki, Qarabağda və dünyanın bəzi başqa yerlərində müsəlmanlar sıxıntı yaşayır. İslam Əməkdaşlıq Təşkilatının xüsusi komitələri vasitəsilə bu işlərə diqqət ayıra və bütün üzvlərin iştirakı ilə bu problemi həll edə bilərik.

“Göründüyü kimi, İranın ali rəhbəri bu mühüm toplantıda Qarabağ münaqişəsinin həlli üçün xüsusi komitələrin təşkili və bütün üzvlər arasında birliyin yaradılması təklifi ilə çıxış edib. Bu təklif sonralar müxtəlif formalarda “İslam Əməkdaşlıq Təşkilatının Qarabağ münaqişəsi ilə bağlı qətiyyətli mövqe ortaya qoyması ilə nəticələnib. Bu çıxışdan bir gün sonra - 1997-ci il dekabrın 10-da Azərbaycanın mərhum prezidenti Heydər Əliyev Ayətullah Xamneyi ilə görüşdə onun çıxışını müdrik və iftixar edilməli çıxış adlandırıb”, - bildirilir. Məqalədə vurğulanır ki, Ayətullah Xamneyi Qarabağ münaqişəsindən İslam ölkələri rəsmiləri ilə görüş zamanı da söz açır.

Məsələn, o, 1994-cü il sentyabrında Pakistanın ovaxtkı prezidenti Faruq Əhmədxan Loğari ilə görüşdə Kəşmir, Fələstin, Bosniya və Qarabağda müsəlmanların hüquqlarının pozulmasına göz yumduqlarına görə, ABŞ-ı və digər insan hüquqlarını əsas tutan təşkilatları pisləyib. Ayətullah Xamneyi bu sözləri ilə yalnız İslam dünyasını deyil, dolayısı ilə bütün ölkələri və insan hüquqları təşkilatlarını Qarabaq məsələsində konstruktiv mövqe tutmağa çağırmışdı. Məqalədə deyilir ki, Ayətullah Xamneyi Qarabağ münaqişəsinin həlli istiqamətində İslam həmrəyliyinin yaradılması üçün Həcc ziyarəti günlərinə xüsusi önəm verib. O, Həcc ziyarətini Qarabağ müsəlmanlarının səsinin bütün müsəlmanlara çatdırılması üçün münasib fürsət hesab edib və böyük Həcc konqresinə ünvanladığı çoxsaylı müraciətlərində Qarabağ münaqişəsi və İslam dünyasının bu məsələyə diqqət ayırmasının vacibliyi barədə çox mühüm bəyanatlar verib.

“Ayətullah Xamneyi 1992-ci il iyunun 3-də Həcc ziyarətində olanlara müraciətində SSRİ-nin süqutunu və ABŞ-da islamafobiya meyillərinin artdığını qeyd edərək, müraciətinin iki ayrı yerində Qarabağ məsələsinə işarə edib. Deyib ki, Qafqazda bəzi ölkələr cüzi təzyiq göstərməklə Qarabağ müsəlmanlarının qətlə yetirilməsinə mane ola bilərdilər, lakin onlar nəinki heç bir iş görmədilər, əksinə, İranın vasitəçilik səylərini sui-qəsd və müxalifətlə hədəf aldılar, Qafqazın yenicə müstəqillik qazanmış xalqlarının taleyinə etinasız qaldılar”, - məqalədə qeyd olunur.

“Ali dini rəhbər 1994-cü il mayın 14-də də böyük Həcc mərasiminə ünvanladığı müraciətində Qarabağ münaqişəsinə işarə edir və ABŞ kimi bəzi güclərin müsəlmanlara qarşı zahirdə tərəfsiz, əməldə isə düşmən mövqeyini tənqid edir. Daha sonra bildirir ki, müsəlmanların münaqişələrin tərəfi olduğu, düşmənlərin zülmünə və təzyiqinə məruz qaldığı bütün konfliktlərdə ABŞ və onun avropalı müttəfiqlərinin izləri görünür. Buna misal olaraq, Kəşmir və Qarabağ münaqişələrini misal çəkir. O, 1994-cü il aprelin 20-də Həcc ziyarətini təşkil edənlərlə keçirilən görüşdə Qarabağın Azərbaycana məxsus olduğunu vurğulayır. Deyir ki, Azərbaycanın Qarabağ bölgəsində müsəlmanların başına gətirilənlər, serblərin Bosniya və Herseqovinada törətdiyi cinayətlərin eynisidir.

Ali dini rəhbər 1993-cü il iyunun 26-da Təbrizə səfəri çərçivəsində Qarabağ məsələsindən bəhs edib. Bildirir ki, Ermənistan dövləti və Qarabağ erməniləri bölgə müsəlmanlarına zülm edirlər. Bu səbəbdən, İran Qarabağ ermənilərinin Ermənistan dövlətinin köməyi ilə etdiyi son əməllərini qətiyyətlə pisləyir.

Ayətullah Xamneyi Azərbaycanın ovaxtkı prezidenti Heydər Əliyevlə görüşdə deyib ki, Azərbaycan əhalisi ermənilərin təcavüzünə məruz qalıb və Ermənistan bu hadisədə birbaşa məsuliyyət daşıyır. Ona cavab olaraq prezident Heydər Əliyev deyib ki, Azərbaycan xalqının 70 il kommunist hakimiyyəti dövründə yaşamasına baxmayaraq, hər zaman öz milli adət-ənənələrini və İslam dinini qoruyub saxlayıb”, - məqalədə deyilir.

Məqalənin sonunda qeyd edilir ki, Qarabağ münaqişəsi SSRİ-nin etnik siyasətinin acı nəticələrindən biri kimi bölgə sakinləri üçün çoxsaylı maddi və mənəvi faciələrə səbəb olub. Münaqişə yaranandan indiyədək münaqişə tərəflərinin İranla qonşu olması, tarixi və mədəni ortaqlıqları bölüşmələri, ən əsası, ali dini rəhbərin Qarabağ müsəlmanlarının vəziyyətinə həssaslıqla yanaşması səbəblərindən İranın xarici siyasətinin diqqətində də olub.

Bildirilir ki, İran Azərbaycanın müstəqilliyini rəsmən tanıyan ilk ölkələrdən biri kimi, Qarabağ münaqişəsi başlayan andan tərəflər arasında davamlı vasitəçilik fəaliyyəti ilə münaqişənin miqyasının genişlənməsinə mane olub. Bu səylər 1992-ci ilin 7 may tarixdə Tehranda Azərbaycanın və Ermənistanın odövrkü rəhbərlərinin bəyanat imzalaması ilə nəticələnib.

Lakin münaqişənin bitməsi ilə razılaşmayan və İranın konstruktiv rol oynamasına qarşı olan bəzi ölkələrin təxribatı nəticəsində, Tehran bəyanatına zidd olaraq, Ermənistan Şuşanı işğal etdi və İranın vasitəçilik cəhdləri nəticəsiz qaldı.

Buna baxmayaraq, İran Qarabağ qaçqınları üçün 100 min nəfərlik qaçqın düşərgəsinin salınması, onların ilkin ehtiyaclarının və təhlükəsizliklərinin təmin edilməsi, həmçinin İmdad komitəsinin uzun illər ərzində bəzi qaçqınların maddi təminatını təyata keçirməsi İranın İslam həmrəyliyi amalına əsasən həyata keçirdiyi dəstək fəaliyyətlərindən bəzi nümunələrdir.

İran hər zaman Azərbaycanın ərazi bütövlüyünün, Qarabağ münaqişəsinin beynəlxalq prinsiplər və beynəlxalq sərhədlərin qorunması əsasında ədalətli həll edilməsinin tərəfdarı olub, bütün beynəlxalq təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib.

*✍ Vüsal Tağıbəyli*

# Kaliforniyanın Torrens şəhəri mayın 28-ni Azərbaycan Milli Günü elan edib

**ABŞ-ın Kaliforniya ştatının Torrens (Torrance) şəhəri mayın 28-ni “Azərbaycan Milli Günü” elan edib. Bununla bağlı şəhər meri Patrick J. Furey tərəfindən müvafiq bəyannamə imzalanıb. Bu barədə hafta.az-a Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan xəbər verilib.**

Bildirilib ki, ölkəmizin Los-Ancelesdəki Baş Konsulluğuna göndərilmiş bəyannamədə Azərbaycan xalqının 1918-ci il mayın 28-də müsəlman dünyasında ilk dünyəvi və demokratik parlamentli respublika yaratdığı, həmin cümhuriyyətin ABŞ da daxil olmaqla, digər demokratik dövlətlər tərəfindən tanındığı vurğulanır.

Sənəddə Azərbaycanın irqindən, cinsindən, milliyyətindən və dinindən asılı olmayaraq hər kəsə səsvermə hüququ verdiyi, bununla da müsəlman dünyasında qadınlara səsvermə hüququ verən ilk ölkə olduğu qeyd edilir.


AZERBAIJAN NATIONAL DAY

in the City of Torrance and encourage the entire community to join in this celebration.

Signed this 28th day of May 2020.

Mayor Patrick J. Furey

ATTEST:

Rebecca Poirier, City Clerk

Bəyannamədə Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra ABŞ-ın ölkəmizi tanıyan və onunla diplomatik münasibətlər quran ilk dövlətlərdən biri olduğu bildirilir. Ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra öz suverenliyini və müstəqilliyini gücləndirdiyi, dünyanın ən sürətlə inkişaf edən və çağdaşlaşan dövlətlərindən birinə çevrildiyi, bu gün regionun ən böyük iqtisadiyyata malik ölkəsi və ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğu vurğulanır. Sənəddə, həmçinin ABŞ daxil olmaqla, bütün dünyada yaşayan milyonlarla azərbaycanlının 28 may tarixini Azərbaycanın Milli Günü kimi bayram edərək, öz əcdadlarının ətraf regionlarda, o cümlədən Mərkəzi Asiya və Yaxın Şərq regionlarında demokratiyanın yayılmasına verdiyi töhfələri xatırladığı bildirilir.

Sonda mayın 28-i Torrens şəhərində Azərbaycan Milli Günü elan edilir və bütün şəhər sakinləri bu bayramı qeyd etməyə dəvət olunur.

*✍ Hafta.az*

# "Tələbələr və valideynlər təhsilhaqlarının ödənilməsinə anlayışla yanaşmalıdırlar"

**Nazirlər Kabinetinin qərarı ilə ödənişli təhsil alan həssas ailə qrupuna daxil olan tələbələrin təhsil haqları ödəniləcək. Bu barədə artıq prosedurlar da başlanılıb. Lakin bəzi insanlar ödənişli təhsil alan tələbələrin təhsilhaqlarının ödənilməsini valideynlərin edə biləcəyini də düşünürlər. Bu praktikanı müsbət saymayanlar da var.**



■ Tələbələrin təhsilhaqlarının dövlət tərəfindən ödənilməsi mexanizmi doğru yanaşmadırmı? Suala təhsil eksperti, millət vəkili Etibar Əliyev cavablandırdı. O, hafta.az-a bu barədə danışarkən dedi ki, cəmiyyətdə pandemiyanın təhsil sisteminə təsiri barədə fikirlər birmənalı deyil:

“Konkret olaraq ali təhsildə nə baş verir? Pandemiya ali məktəblər qarşısında eyni zamanda 3 problem yaratdı. Birincisi və ən əsası, mövcud vəziyyəti nəzərə almaqla təhsil prosesini təşkil etmək və keyfiyyətli təhsil verməyə nail olmaq. İkincisi, virtual məkanda işləmək bacarıqları olmayan müəllimlərə dəstək durmaq. Üçüncüsü, çıxılmaz vəziyyətlə üzləşən tələbələrə dəstək durmaq. Distant təhsil ətrafında geniş imitasiyalar mövcuddur. Burada bütün universitetlər və bütün tələbələrlə bağlı universal qərar qəbul etmək mümkün deyil. Bütün dünyada belədir. Tələbələrin distant təhsilin keyfiyyətinə verdiyi qiymət fərqlidir. Ali məktəblər prosesi fərqli şəkildə həyata keçirdiər. Müşahidələrimiz göstərir ki, universitet var ki, günə 900 distant dərs təşkil edə bildi. Təhsil Nazirliyi və müstəqil ekspertlər təhsilin bu növünü yetərincə yüksək səviyyədə təşkil edənləri və təşkil edə bilməyənləri aşkar etməlidirlər. Sual yaranır: ali məktəblər distant təhsilə keçdikləri zaman təhsil haqlarına baxılmalıdırmı? Ali məktəblərin yeganə gəlir mənbəyi olan təhsilhaqlarının 83-85 faizi əməkhaqlarına sərf olunur. Bu il dövlət sifarişli yerlər 16 000 nəfər artırılıb. Ödənişli təhsil alan tələbələr də təhsil nailiyyətlərinə görə təqaüd alırlar. Nazirlər Kabinetinin “Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə” qərarı 20 mindən artıq tələbəni əhatə edir. Qərarın icrası üçün dövlət büdcəsindən 40 milyon manat maliyyə vəsaiti ayrılıb. Bütün bunlar tələbələr üçün yüksək güzəştlərdir.

Ali məktəb rəhbərləri də pandemiyanın tələbələrin təhsilinə təsirini yumşaltmaq məqsədilə müxtəlif güzəştlər həyata keçirirlər. Bununla yanaşı, biz müəllimləri də düşünməliyik. Pandemiya dövründə ən böyük fədakarlığı həkimlər və müəllimlər etdilər. Həkimlər illər ərzində gördüyü işi, müəllimlər isə heç vaxt görmədikləri yeni işi etdilər - distant dərslər apardılar. Təhsilin bütün pillələrində çalışan müəllimlər bu dövr ərzində müxtəlif vasitələrlə dərs deməyə çalşdılar. Əlbəttə ki, bilik qazanmaq istəyi olan tələbələrin böyük kəsimi bundan bəhrələndilər. Tələbələrin kursadan-kursa keçmələri məsələsində problem yaradılmamlıdır. Distant təhsilin təşkili ənənəvi təhsildən qat-qat çətindir. Buna görə də tələbələr və valideynlər təhsil haqlarının ödənilməsinə anlayışla yanaşmalıdırlar. Bu yük də dövlətin üzərinə düşməməlidir. Onsuz da tələbələrə təhsil haqlarının hissə-hissə ödənilməsinə imkanlar verilir. Dövlətin dəstəyi ilə vətəndaşın dəstəyi uzlaşmalı və vəhdət təşkil etməlidir. “Birlikdə güclüyük” paradiqması isə bunun fəlsəfəsini təşkil etməlidir. Nəzərə almaq lazımdır ki, elə ali məktəblər var ki, plan yerləri 70-80 faiz dolub. Bunun özü də müəllimlərin əməkhaqqının ödənilməsində ciddi problemlər yaradırdı”.

*✍ Ruzbeh*

BÖLGƏ

## LAÇINDAN olan məcburi köçkünlər qanvermə aksiyasına qoşulublar



**✔ Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən qanvermə aksiyasına laçınlı məcburi köçkünlər də qoşulublar.**

Ağcabədi rayonunun Taxtakörpü ərazisindəki 552 ailəlik köçkün qəsəbəsində qanvermə aksiyası keçirilib. Aksiyada Laçın Rayon İcra Hakimiyyətinin, eləcə də rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların işdə olan və sağlamlığı imkan verən əməkdaşları könüllü olaraq iştirak ediblər. Mərkəzi Qan Bankının Bərdə regional bölməsinin peşəkar həkim kollektivi tərəfindən həyata keçirilən xeyirxah aksiya zamanı 33 nəfər könüllü qan verib.

Toplanan qan laboratoriya müayinəsindən keçirildikdən sonra irsi qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

## TƏRTƏRDƏ dezinfeksiya işləri davam etdirilir



**✔ Nazirlər Kabineti yanında Operativ Qərargahın sərəncam və tövsiyələrinə uyğun olaraq koronavirus (COVID-19) infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Tərtər rayonunda sanitar-dezinfeksiya işləri davam etdirilir.** İnfeksiyanın qarşısının alınması məqsədilə dezinfeksiya işləri müəyyən edilmiş qrafikə əsasən həyata keçirilir. Qrafikə uyğun olaraq, Tərtər şəhərindəki istirahət parkında və inzibati binalarda dezinfeksiya işləri aparılıb.

## QUSARDA ağacların kəsilməsi faktı aşkarlanıb



**✔ Ekologiya və Təbii Sərvətlər Nazirliyinə Qusar rayonu Qalacıq kəndində meşəlik ərazidə ağacların kəsilməsi haqqında daxil olan şikayət araşdırılıb.** Bunu kütləvi informasiya vasitələrinə açıqlamasında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə bildirib. O qeyd edib ki, həmin əraziyə keçirilən baxış zamanı oranın meşə fondu torpağı deyil, bələdiyyə mülkiyyətinə aid torpaq sahəsi olduğu məlum olub. Təqsirkarın müəyyən olunması və barəsində qanuna müvafiq tədbir görülməsi üçün Qusar Rayon Polis İdarəsinə müraciət edilib.

## ŞƏMKİR Su Polisi qanunsuz balıq ovçusunu saxlayıb

**✔ Şəmkir Su polisi qanunsuz balıq ovçusunu saxlayıb. Hadisə Su Nəqliyyatında Polis İdarəsinin Şəmkir Xətt Polis Məntəqəsi əməkdaşlarının 2 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi ilə birlikdə Kürütökmə aylığı çərçivəsində ekoloji cinayətlərə qarşı mübarizə məqsədilə həyata keçirilən əməliyyat tədbiri zamanı qeydə alınıb.** Şəxsiyyəti sonradan müəyyən olunmuş Şəmkir rayon Qaracaəmirli kənd sakini Əhmədov Elşən Xanlar oğlu Yenikənd su anbarının Səməd Vurğun kəndi istiqamətində qanunsuz balıq ovu ilə məşğul olduğu zaman saxlanılıb.

Yoxlama zamanı ondan 1 ədəd rezin qayıq, 1 ədəd hava üfürən, 2 ədəd avar, 1 ədəd rezin kombinezon, hər birinin uzunluğu 100 metr, eni 6 metr, gözlərinin ölçüləri 24*24 mm. Və 90*90mm olan 2 ədəd tor və 19 ədəd şamayı balıqları aşkar edilərək maddi sübut kimi götürülüb.

Sorğu zamanı Elşən Əhmədov həmin balıqları Yenikənd su anbarından yanında aşkar edilmiş sintetik tor, qurğu və vasitələrlə qanunsuz olaraq ovladığını etiraf edib.

## Baş Prokurorluqda yeni vəzifəyə təyin olunmuş kadrlar kollektivə təqdim ediliblər

**Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi Aparatın rəhbər heyətinin iştirakı ilə Baş prokurorun yeni təyin olunmuş birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavinləri Elmar Camalov və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov kollektivə təqdim ediliblər.**

Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə prokurorluq orqanlarına göstərdiyi gündəlik diqqət və qayğıya görə təşəkkürünü bildirərək prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rüstəm Usubova və Namiq Əsgərova “Əməkdar hüquqşünas” fəxri adının verilməsinin dövlətimizin başçısı tərəfindən Azərbaycan Prokurorluğuna verilən yüksək qiymətin göstəricisi olduğunu xüsusi vurğulamaqla yeni təyin edilən şəxslərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə iştirak edən Rüstəm Usubov və Namiq Əsgərov fəaliyyətlərinə verilən yüksək qiymətə görə dövlətimizin başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkürlərini bildirib, xidmət illəri ərzində xalqa və dövlətə sədaqət prinsiplərini rəhbər tutduqlarını, vətənpərvərlik və peşəkarlıq irsinin daim uca tutulduğu prokurorluq orqanlarında xidmət etməkdən şərəf duyduqlarını ifadə ediblər. Göstərilən yüksək etimada görə Elçin Məmmədov, Elmar Camalov, və Nazim Rəcəbov dövlətimizin başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkür edərək, fəaliyyətlərində şəffaflıq və dürüstlük prinsiplərinin daim uca tutacaqlarını diqqətə çatdırıblar.

Ekologiya və ətraf mühitin mühafizəsi

# Polietilen torbalara qadağa yenidən gündəmdə

## Bununla bağlı qərar müvafiq dövlət qurumlarının müsbət rəyindən sonra qüvvəyə minəcək

***"Ekologiya və Təbii Sərvətlər Nazirliyi bütün digər maraqlı qurumlar və məsləhətçilərlə birlikdə polietilen torbalardan istifadə ilə bağlı təkliflər paketinin tətbiq olunması cədvəlini hazırlayıb. Burada onların təkcə pullu olması, məhdudlaşdırılması deyil, digər məsələlər də öz əksini tapıb. Sənədlər hazırdır və müvafiq dövlət qurumlarının müsbət rəyindən sonra qüvvəyə minəcək". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev bildirib. Onun sözlərinə görə, sənədlərdəki tədbirlərdən biri qalınlığı 15 mikrona qədər olan plastik polietilen torbaların Azərbaycanda satışı, idxalı və istehsalının tam qadağan edilməsidir:***



"Həmçinin sənədlərdə 15 mikrondan çox plastik polietilen torbaların satışının pullu olması da öz əksini tapıb. Bu, dünyada qəbul olunmuş praktikadır və çox yaxşı nəticələr verib, müxtəlif ölkələrdə polietilen paketlərin istifadəsi azalıb. Bu təcrübə Gürcüstan, Türkiyə və digər ölkələrdə tətbiq edilib və polietilen paketlərdən istifadənin kəskin azalmasına səbəb olub. Azərbaycanda həmin təcrübənin tətbiqi elan olunacaq, lakin hələ ki, bununla bağlı dövlətin qərarı yoxdur". Məlumat üçün bildirək ki, araşdırmalara görə, sellofan paketlər alıcılar tərəfindən orta hesabla 12 dəqiqə istifadə olunur. Məhsul paketdən çıxarıldıqdan 12 dəqiqə sonra təbiətə atılan bu paketlərin torpağa qarışması üçün 100 illər lazımdır. ABŞ-da ekoloqların araşdırması nəticəsində məlum olub ki, hər il dünyada 500 milyard (qeyri-rəsmi məlumatlara görə - 1 trilyon) sellofan torba istehsal edilir. Dünyada hər 1 dəqiqədə isə 1 milyon polietilen torba zibil qutusuna atılır. Polietilenin çürüyərək yox olması üçün torpaqda 800 il, dənizdə isə 400 il lazım gəlir. Yəni, alış-verişlərin ən başlıca yardımçısı hesab edilən bu torbaların təbiətə vurduğu zərər sayılmayacaq dərəcədə çoxdur. Bunu nəzərə alan dünya ölkələri artıq sellofan paketlərdən imtina edir. Ümumilikdə 40 ölkədə plastik məhsulların istifadəsi məhdudlaşdırılıb. Bəzi ölkələrdə hətta turistlərin polietilen məhsullarla gəlməsinə belə icazə verilmir. Bir sıra ölkələrdə isə plastik qablaşdırma tullantılarının 60-70 faizi təkrar emal edilir.

Azərbaycan Dövlət Statistika Komitəsinin hesablamalarına görə isə 2017-ci ildə Azərbaycanda istehsal olunan plastik qablaşdırma məhsullarının həcmi 2010-cu illə müqayisədə təqribən 2,5 dəfə artıb, eyni zamanda, 2009-cu illə müqayisədə 5 dəfə çox plastik qablaşdırıcı idxal edilib. Ölkədə hər il orta hesabla adambaşına 24 kiloqram plastik tullantı yaranır. Plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin minimuma endirilməsi baxımından onların səmərəli idarə olunması ilə bağlı tədbirlər görülməsi zəruri sayılır.

Son illərdə Azərbaycanda da bu istiqamətdə bir çox məqsədyönlü işlər görülüb. Belə ki, ölkəmizdə emal və xidmət müəssisələrinin qurulmasına dəstək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 1947 nömrəli Sərəncamı ilə Balaxanı Sənaye Parkı yaradılıb. Eyni zamanda, Prezident İlham Əliyev 2019-cu il fevralın 7-də "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Tədbirlər Planı plastik qablaşdırma məhsullarının kütləvi istifadəsinin bitkilərə, heyvanlara, torpaq və su resurslarına mənfi təsirinin qiymətləndirilməsi əsasında bu sahədə çirklənmənin azaldılması ilə bağlı nəzərdə tutulan tədbirlərin icrası məqsədilə hazırlanıb. Tədbirlər Planının hazırlanması məqsədilə ölkəmizdə bu sahə üzrə mövcud vəziyyət araşdırılıb, habelə beynəlxalq təcrübəyə əsaslanaraq plastik qablaşdırma tullantılarının toplanması, daşınması, utilizasiyası və təkrar emalı zənciri boyu yüksək səmərəlilik və keyfiyyət səviyyələri, tənzimləyici mexanizmlər, istifadə olunan idarəetmə prinsipləri və digər istiqamətlər üzrə təhlillər aparılıb.

Həmçinin ölkədə bu sahədə vəziyyətin yaxşılaşdırılması üçün dünyanın qabaqcıl ölkələrinin analoji təcrübələrindən istifadə edilərək strateji məqsədlər müəyyənləşdirilib.Tədbirlər Planı 2020-ci ilədək strateji baxışı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışını əhatə edir. Burada sahə üzrə idarəetmənin səmərəliliyinə və yüksək xidmət səviyyəsinə nail olmaq üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Yeri gəlmişkən, bu ilin əvvəlində Ekologiya və Təbii Sərvətlər Nazirliyində plastik tullantıların ətraf mühitə mənfi təsirlərinin aradan qaldırılmasında marketlərin rolu mövzusunda görüş də keçirilib. Görüşdə plastik və polietilen məhsulların ətraf mühiti çirkləndirmək, şəhərin gözəlliyini korlamaqla yanaşı, bioloji müxtəlifliyə zərər verdiyi vurğulanıb. Qeyd olunub ki, heyvanlar plastik məhsulları qida ilə səhv salır və nəticədə hər il 100 min heyvan bu səbəbdən ölür. Heyvanların ölümündən sonra parçalanmamış qalan plastikləri digər heyvanlar yeyir və nəticədə "ölüm zənciri" yaranır.

Sözügedən görüşdə həmçinin bir sıra marketlərdə plastik və polietilen məhsulların əvəzləyicilərinin təbliği məqsədilə maarifləndirici aksiyalar keçirildiyi diqqətə çatdırılıb. Belə ki, "Yaşıl fikirlə sağlam gələcəyə doğru", "Təbiəti qoru, özünü qoru" şüarı ilə təşkil olunan aksiyalar zamanı polietilen torbalar əvəzinə ekoçantalardan istifadəyə üstünlük vermək məqsədilə bir neçə marketdə alıcılara ekoçantalar paylanılıb.

Təkliflər arasında satıcılara polietilen torbalardan və plastik qablaşdırma məhsullarından istifadənin məhdudlaşdırılması istiqamətində təlimlər keçirilməsi, ekoloji təmiz çantaların satışına daha çox şərait yaradılması, onların satışı üçün daha çox rəfin ayrılması, ekoçantaların və biopaketlərin kassalara daha yaxın və müştərilərin diqqətini dərhal cəlb edəcək yerlərdə satışlarının təmin edilməsi, bir dəfə istifadəyə yararlı olan plastik qabların satışının məhdudlaşdırılması, ekoçantaların alınması üçün müəyyən güzəştlərin və endirim aksiyalarının tətbiqi, satıcıların müştəriləri ekoçantaların və biopaketlərin satışına sövq etməsi yer alıb.

■ **Məsələyə münasibət bildirən ekoloq Telman Zeynalov da hesab edir ki, bu məhsullardan ən böyük ziyan təbiətə və ordan da dolayısı ilə insana dəyir:** "Digər tərəfdən, sellofan torbalar başqa məişət tullantılarından çox yüngül olduğundan küləkli Bakıda qısa müddətdə uzun yol qət etmələri mümkündür. Ağacların başına ilişib qalan torbaları isə təmizləmək kimsənin ağlına gəlmir. Bu mövzunu dəfələrlə qaldırsam da nəticəsi olmayıb. Biz tələb edirdik ki, həmin sellofan torbaları istehsal edib ondan külli miqdarda pul qazananlar ekologiyaya vurduqları ziyanı da qarşılasınlar. Ən azından həmin torbaların təbiətdən təmizlənməsində iştirak etsinlər. Belə olan təqdirdə görülən işlərin effekti daha böyük olar".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov hesab edir ki, bu istiqamətdə həyata keçirilən tədbirlərin sürətləndirilməsinə ehtiyac var:** "Bu gün bir çox dünya ölkələrində bu torbaların istifadəsindən imtina edilib. Lakin keçmiş MDB məkanında, Rusiyada, Ukraynada, Azərbaycanda çox nazik sellofan torbalar hələ də satılır. Azərbaycanda supermarket sahibləri elə başa düşür ki, bu torbalarla istehlakçılara yüksək səviyyədə xidmət göstərirlər. Əslində bu torbalar ətraf mühiti və ekologiyanı sürətlə çirkləndirir. Həmçinin bu torbaları yandırdıqda havaya qaz buraxılır. Bu sahədə bu gün Azərbaycanda müxtəlif problemlər mövcuddur".

E.Hüseynovun sözlərinə görə, ölkəmizdə bununla bağlı xüsusi komissiya fəaliyyət göstərir: "Sözügedən komissiya əsasən tullantıların idarə olunması işini həyata keçirməklə məşğul olur. Əsas məqsəd Azərbaycanda polietilen torbalardan tamamilə imtinaya nail olmaqdır. Hətta sırf bu məqsədlə Azad İstehlakçılar Birliyinin həyata keçirdiyi bir neçə layihə də var. Misal üçün, çalışırıq ki, köhnə bazar torbalarının yenidən istifadəsinə nail olaq. Sellofan torbalar istehlakçılara daha baha qiymətə satılmalıdır ki, bu torbalardan az istifadə olunsun. Bu sahədə müxtəlif maarifləndirmə işi də aparılır. Həmin torbaların yandırılması, kompakt şəkildə toplanması istiqamətində işlər aparırıq".

✍ ***Sevinc***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

Ekologiya və ətraf mühitin mühafizəsi

# 23 may ekoloqların peşə bayramıdır

## Azərbaycanda ətraf mühitin mühafizəsi həmişə diqqət mərkəzində saxlanılır

***Mayın 23-ü Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramıdır. Qeyd edək ki, nazirlik Heydər Əliyevin 23 may 2001-ci il tarixli Fərmanı ilə ölkədə ekologiya, ətraf mühitin mühafizəsi, hidrometeorologiya, geologiya, meşəçilik və balıqçılıq sahəsində vahid dövlət siyasətini həyata keçirmək məqsədi ilə yaradılıb. Prezident İlham Əliyevin 16 may 2007-ci il tarixdə imzaladığı sərəncama uyğun olaraq ölkəmizdə hər il 23 may günü Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı kimi qeyd olunur. Yeri gəlmişkən, Azərbaycanda təbiətin, ətraf mühitin mühafizəsi həmişə diqqət mərkəzində saxlanılır.***



Ekologiya və Təbii Sərvətlər Nazirliyi respublika ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətini həyata keçirən orqandır.

Azərbaycanda yürüdülən ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. İnkişafın ekoloji baxımdan davamlı olmasını təmin etmək üçünsə iqtisadi fəaliyyət zamanı meydana çıxan ciddi ekoloji problemləri aradan qaldırmaq, onların ətraf mühitə mənfi təsirinin minimuma endirilməsi tələb olunur.

Ekoloji siyasətin əsas istiqamətləri üzrə qarşıya qoyulmuş məqsədə çatmaq üçün vəzifələrə gəlincə, buraya ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması üçün iqtisadi və insan potensialının idarə edilməsinin müasir üsullarından istifadə edilməsi, indiki və gələcək nəsillərin rifahının yaxşılaşdırılmasını təmin edən, stimullaşdıran iqtisadi modellərin, texnologiyaların yaradılması və istifadəsi,eyni və müxtəlif nəsillərin nümayəndələri arasında təminatın ədalətlilik prinsipləri əsasında həyata keçirilməsi,insanın həyat fəaliyyətini təmin edə biləcək ekosistemlərin və biomüxtəlifliyin təbii mühitinin olduğu kimi qorunub saxlanılması daxildir.

Aparılan tədqiqatlar göstərir ki, hazırda ölkəmizdə əsas ekoloji problemlər su ehtiyatlarının çirklənməsi, yəni, Xəzər dənizinin sənaye və məişət tullantı suları ilə çirkləndirilməsi, su obyektlərinin, o cümlədən transsərhəd çayların çirkləndirilməsi, tullantı sularının idarə olunması, yəni, təmizləyici qurğularının gücünün formalaşan tullantı sularından az olması, tullantı sularının təmizlənmədən su hövzələrinə axıdılması daxildir.

Bundan başqa, atmosfer havasının çirklənməsi, stasionar mənbələrdən çirklənmələr, səyyar mənbələrdən çirklənmələr, torpaqların deqradasiyaya uğraması (eroziya, şoranlaşma və s.), yəni, erroziya və şoranlaşma prosesləri, torpaqların tullantılarla çirkləndirilməsi, torpaq örtüyünün həddindən artıq otarılması da əsas ekoloji problemlərdən sayılır. Eyni zamanda, bərk məişət və sənaye, həmçinin təhlükəli tullantıların tələb olunan səviyyədə utilizasiya olunmaması, tullantıların tam səviyyədə idarə edilməməsi, qeyri-qanuni poliqonların mövcudluğu, biomüxtəlifliyin, o cümlədən flora, fauana və xüsusi ilə balıq ehtiyatlarının seyrəkləşməsi, iqlim dəyişikliklərinin təsiri nəticəsində biomüxtəlifliyin azalması, yaşayış məskənlərinin genişlənməsi ilə bağlı antropogen təsirlər, meşə və yaşıllıq sahələrinin miqyasınının azlığı, meşə ərazilərinin miqyasının qəbul edilmiş normadan azlığı, yaşayış məntəqələri ərazisində yaşıllıqların tələb olunan səviyyədən aşağı olması, hərbi konfliktlər nəticəsində ətraf mühitə dəyən zərərlər və s. əsas ekoloji problemlər arasındadır.

2019-2022-ci illər üzrə ekoloji siyasətin əsas istiqamətlərinə gəlincə, göstərilən müddət ərzində ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin tənzimlənməsi istiqamətində mütərəqqi üsulların tətbiq edilməsi, mövcud ekoloji sistemlərin qorunması, tullantıların, o cümlədən polietilen və plastik qablaşdırma materiallarının idarə olunmasında mütərəqqi üsullardan istifadə, istehsalçıların genişləndirilmiş məsuliyyətinin tətbiqi diqqət mərkəzində olacaq. Eyni zamanda, tikinti materialları üçün xammal hesab olunan faydalı qazıntıların (qum, qum-çınqıl, əhəng daşı, kvars qumu, gil və s.) hasilatı prosesində müvafiq qanunvericiliyin tələblərinin icrasına nəzarətin gücləndirilməsi, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün aidiyyəti dövlət qurumları tərəfindəm istilik effekti yaradan qaz tullantılarının azaldılması üzrə tədbirlərin görülməsi, yaşıllıqların mühafizəsi, Xəzər dənizinin çirklənmədən qorunması, müasir metodlardan istifadə etməklə təbii sərvətlərin axtarışı, kəşfiyyatı və hasilatı prosesində ətraf mühitə təsirlərin azaldılması diqqətdə saxlanılacaq.

İqtisadiyyatın bütün sahələrinin inkişafı prosesində ətraf mühitin mühafizəsi tələblərinin ön plana çəkilməsi, biomüxtəlifliyin mühafizəsi və xüsusi mühafizə olunan təbiət ərazilərinin infrastrukturunun inkişafı, su ehtiyatlarının, o cümlədən transsərhəd suların inteqrasiyalı idarə olunması,"yaşıl iqtisadiyyat"ın inkişafı, xüsusi ilə kiçik və orta müəssisələrin fəaliyyətinin yaşıllaşdırılması da diqqət mərkəzində saxlanılacaq.

Bundan başqa, qeyd olunan illər ərzində atmosfer havasına və su obyektlərinə çirkləndirici maddələrin atılmasına, habelə tullantıların yerləşdirilməsinə görə ödəmə normativlərinin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, sudan ödənişli istifadə ilə bağlı qanunvericiliyin qəbul edilməsi, meşələrə dair qanunvericiliyin pozulması ilə bağlı tətbiq edilən maliyyə sanksiyalarının müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, yerin təkindən istifadənin norma və qaydalarının təkmilləşdirilməsi, hüquqi bazanın möhkəmləndirilməsi, ekoloji standartların beynəlxalq tələblərə uyğunlaşdırılması və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi də planlaşdırılıb.

2019-2022-ci illər üzrə ekoloji siyasətin əsas istiqamətləri sırasında çirklənmiş ərazilərin təmizlənməsi və həmin ərazilərin ekoloji bərpası, yaşıllıqların salınması, lay sularının ərazidən kənarlaşdıraraq idarə olunması, neft şlamlarının zərərsizləşdirilməsi və ya anbarlaşdırılması, neftlə çirklənmiş torpaqların bərpası üçün sağlamlaşdırma tədbirlərinin görülməsi, müxtəlif maddələrlə çirklənmiş göl və gölməçələrin bərpası, meşə quruluşu (inventarizasiya) işlərinin aparılması, meşə ilə örtülü sahələrin miqyasının artırılması, o cümlədən aqromeşə massivlərinin salınması, arid ərazilərdə, o cümlədən magistral avtomobil yollarının ətrafında yaşıllıqların salınması məsələsi də var.

Bu illər ərzində, həmçinin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən istifadənin inkişafı və enerji effektivliyinə nail olunması, enerji səmərəliliyinin təmin olunması, alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, su ehtiyatlarından səmərəli istifadə, təmizlənmiş tullantı sularından təkrar istifadə, ekoturizmin inkişafı, mineral xammala tələbatın yerli ehtiyatlar hesabına ödənilməsi məqsədi ilə geoloji axtarış və axtarış-qiymətləndirmə işlərinin genişləndirilməsi, meşə və qeyri-meşə fondu torpaqlarında salınmış meyvə bağlarının məhsullarından istifadə diqqət mərkəzində olacaq.

Digər tərəfdən göstərilən müddətdə mineral və termal su ehtiyatlarının potensialından istifadə olunması, şirin su və dəniz əmtəə akvakulturasının inkişafı, ətraf mühitin monitorinqi və hidrometeoroloji müşahidə sisteminin təkmilləşdirilməsi, o cümlədən müasir kompleks labarotoriyalarının yaradılması, təhlükəli hidrometeoroloji hadisələrin erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi, hidrometeoroloji müşahidə və monitorinq sisteminin modernləşdirilməsi, geodeziya və kartoqrafiya sisteminin modernləşdirilməsi, coğrafi informasiya sistemin yaradılması, dövlət sərhədlərinin delimitasiyası, demarkasiyası, redemarkasiyası işlərinin aparılması, müdafiə təyinatlı rəqəmsal topoqrafik xəritələrin beynəlxalq standartlara uyğunlaşdırılması da əsas istiqamətlərdəndir.

✍ ***Sevinc***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# 15 saylı Birləşmiş Şəhər Xəstəxanasında "UZİ" aparatı olmasa da, həkim maaş alır

***Paytaxtın Suraxanı rayonunda əksər poliklinika və xəstəxanalarda "UZİ" aparatı yoxdur, olanı da ya işləmir, ya da endoskopiya aparatı ümumuyyətlə yoxdur. Bu cür poliklinikalardan biri də Qaraçuxur qəsəbəsində fəaliyyət göstərən 15 saylı Birləşmiş Şəhər Xəstəxanasıdır. Qaraçuxur Suraxanı rayonunda ən böyük qəsəbələrdən biridir.***



Təəssüflər olsun ki, sözügedən xəstəxananın, ancaq poliklinika şöbəsi fəaliyyət göstərir. Xəstəxananın stansionar şöbələri yerləşən bina isə yararsız halda, qəzalı vəziyyətdə olduğuna görə bağlanıb, demək olar ki, işləmir. Sözügedən tibb müəssisəsində endoskopiya şöbəsi ümumiyyətlə yoxdur, "UZİ" isə işləmir. Bu da xəstələrin narazılığına gətirib çıxarır. Sakinlər şikayətlənirlər ki, başqa xəstəxanalara getməyə maddi imkanları yoxdur: "Pasiyentlərin əksəriyyəti yaşlı adamlardı. Pandemiyadan qorxurlar. Sözügedən xəstəxanada "UZİ" həkimi neçə illərdir ki, dekretə çıxdığına görə işə gəlmir. Onun yerinə müvəqqəti olaraq yarım ştat məbləğində rentgen həkimini təyin ediblər. Amma bu günə kimi "UZİ"kabineti işləmir.

Səbəb gətirirlər ki, "UZİ" aparatı xarab olub, amma həkimlər "UZİ"yə görə dövlətdən maaş alırlar".

Sakinlər vurğuladılar ki, dünyanı lərzəyə salmış COVİD-19 virusunun tüğyan etdiyi dövrdə, artıq hərbi çağırış başlanılıb. Onların sözlərinə görə, Suraxanı kimi böyük bir rayon ərazisində "UZU" kabineti Yeni Günəşli qəsəbəsində fəaliyyət göstərən 24 saylı Birləşmiş Şəhər Xəstəxanasında işləyir. Yeni Günəşli qəsəbəsində isə təxminən, 80 mindən çox əhali yaşayır.



Hərbi çağırışla əlaqədar olaraq rayon üzrə bütün çağırışçılar məhz həmin xəstəxanaya gedib, "UZİ" müayinəsindən keçirlər. Eyni zamanda, müayinəyə çoxlu sayda pasiyent də gəlir.

"UZİ" həkimi, ancaq ilk növbədə, çağrışçıları "UZİ" müayinəsindən keçirir. Çağırışçılar çox olduğundan, həkim çatdıra bilmir. Onlar da bizim kimi saatlarla "UZİ" kabinetinin qabağında qalıb gözləməli olurlar. Üstəlik, biz həmin xəstəxananın qeydiyyarında deyilik. Bu da bizim üçün çətinlik törədir. Tibbi sığortaya keçəndə biz sakinlər üçün daha çətin olacaq".

Sakinlərin dediklərinə aydınlıq gətirmək üçün 15 saylı Birləşmiş Şəhər Xəstəxanasına üz tutduq. Xəstəxanada səliqə-sahman özünü göstərirdi. Koronavirus qaydalarına ciddi əməl edilirdi. Girəcəkdə bir nəfər ağxalatlı qadın dayanıb, gələn xəstələrə nəzarət edirdi. Maskası olmayanları içəri buraxmırdılar. Girəcəkdə spirt məhlulu qoyulub. Gələn pasiyentlər əvvəlcə məhlulla əllərini dezinfeksiya edirlər.

Hər kəsin aparatla temperaturu ölçüləndən sonar içəri buraxılırdı. Həkim və tibb işçilərinin hamısı qoruyucu tibbi maskadan istifadə edir, ara məsafə gözlənilir, xəstələr isə tək-tək içəri buraxılırdı.

Baş həkim Ramella Quliyeva "Həftə içi"nə bildirdi ki, həqiqətən də "UZİ" aparatı işləmir: "300 manat verib aparatı düzəltdirdik, yenidən xarab oldu. İki aydan çoxdur işləmir. "UZİ" həkimi Nigar xanım 4 ildən çoxdur ki, dekretdədir. Xəstələri rentgen həkimi Elçin Babayev "ÜZİ"də müayinədən keçirir. Aparat işləmədiyindən, göstəriş vermişəm ki, may ayından onun yarım ştat əməhaqqısı kəsilsin".

Həkim qeyd etdi ki, baş həkim işləyən müddətə qədər rəhbərlik etdiyi xəstəxanada kardioqrama aparatı da yox idi. Səhiyyə Nazirliyindən xahiş etdikdən, sonra bizə təzə aparat verdilər. Rayonun üç qəsəbəsinin - Əmircan, Bülbülə və Yeni Günəşli qəsəbələrinin sakinləri gəlib bizdə kardioqrama olunurlar. Bu gün səhiyyə sistemində bir boşluq yaranıb. Bakı Baş Səhiyyə İdarəsinin, demək olar ki, elə bir səlahiyyəti qalmayıb. Bu səbəbdən, avadanlıq ala bilmirik. Kardioqrama aparatının lentini öz cibimizin pulu ilə alırıq".

✍ *Qələndər Xaçınçaylı*

# REACT-C19 layihəsinin ikinci mərhələsi uğurla yekunlaşıb




**Azərbaycanda COVID-19-a qarşı hazırlıq və mübarizə tədbirləri çərçivəsində xəstəxanalarda əsas bacarıqları sürətlə artırmaq məqsədilə həyata keçirilən REACT-C19 layihəsinin ikinci mərhələsi uğurla yekunlaşıb.**

Bir ay yarımdır davam edən və indiyədək 8 xəstəxananı əhatə edən layihədə Türkiyədə işləyən 19 azərbaycanlı həkim iştirak edir.

Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı mayın 22-də layihənin ikinci mərhələsinin yekunlarına dair keçirilən mətbuat konfransında deyib.

O bildirib ki, bu müddət ərzində REACT-C19 heyəti seçilmiş xəstəxanalardakı mövcud vəziyyəti qiymətləndirib və boşluqların aradan qaldırılmasında xəstəxanalara dəstək olub: "Bakıdakı 4 xəstəxanada - Mərkəzi Neftçilər Xəstəxanası, "Yeni klinika", Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarında işlərini yekunlaşdırdıqdan sonra həkimlər dörd bölgəyə - Gəncə, Ağdaş, Goranboy və Şəmkirə yola düşüblər.

REACT-C19 heyəti ÜST-ün Xəstəxana Hazırlıq Siyahısından istifadə edərək seçilmiş xəstəxanalarda mövcud vəziyyəti dəyərləndirib, problemlərin aradan qaldırılmasına dəstək olub, eləcə də xəstəxanaların hazırlıq səviyyəsini artırmaq üçün orada çalışan həkimlərlə birgə fəaliyyət planı üzərində işləyib. Standart qiymətləndirmə alətinin istifadəsi tibb işçilərinin gündəlik fəaliyyətlərində işlərinin daha səmərəli aparılmasına yardımçı olub.

Həkim-mütəxəssislər infeksiyanın qarşısının alınması, nəzarət komitələrinin yaradılması və gücləndirilməsi, eləcə də triaj sistemlərinin qurulması üzərində çalışıblar. Bu tədbirlər infeksiyanın tibb işçilərinə, xəstələrə və ailələrə yayılmasını minimuma endirmək üçün vacibdir. Bu müddət ərzində həkimlər, tibb bacıları və xəstəxanalardakı köməkçi heyət daxil olmaqla 400-dən çox tibb işçisi REACT-C19 həkimlərinin keçirdiyi təlimlərdə iştirak edib. Onlar təlimlərin keçirilməsi və standartların yaradılması ilə yanaşı, ağır xəstələrin müalicəsinə dair bilik və təcrübələrini yerli həkimlərlə bölüşüblər. REACT-C19 heyəti iyunun sonunadək Azərbaycanın müxtəlif bölgələrində fəaliyyətini davam etdirəcək.

Xəstəxanaların rəhbərliklərinə və işçilərinə bu prosesdə göstərdikləri misilsiz xidmət üçün, həkimlərimizə isə verdikləri əvəzsiz töhfələrə görə təşəkkür edirik". Koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi məqsədilə tez-tez yeni testlər hazırlanır. Hazırda virusa yoluxub-yoluxmamağı müəyyənləşdirən seroloji testlərdən istifadə olunur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Azərbaycan hökuməti ilə birgə əhalini seroloji testlərdən keçirməyi və neçə faizin xəstəliyi keçirmiş olduğunu müəyyənləşdirməyi nəzərdə tutur.

Hande Harmancı mayın 22-də REACT-C19 layihəsinin ikinci mərhələsinin yekunlarına dair keçirilən mətbuat konfransında deyib. ÜST rəsmisi pandemiyanın ikinci dalğasından da bəhs edərək bildirib ki, ondan qorxmamaq lazımdır. Nə qədər çox dalğa olarsa, pandemiyanı bir o qədər çox üstələmişik deməkdir. Tək bir böyük dalğa olarsa, bu dalğa səhiyyə sistemini yükləyəcək, əhalinin sağlamlığına mənfi təsir edəcək. Biz hazırda tək böyük dalğadan qorunmuş vəziyyətdəyik.

"Karantin rejiminin yumşaldılmasından sonra yoluxma saylarında artım qeydə alınır. Bunun yeni dalğa olub-olmadığını müəyyən müddət ərzində əvvəlki nəticələrə baxaraq müəyyənləşdirə biləcik. Lakin əhalinin əməl etməli olduğu profilaktik tədbirlər dəyişməz olaraq qalır. İnsanların yeni normalara - sosial məsafəyə, gigiyena qaydalarına, tibbi maska və əlcəkdən istifadəyə alışması lazımdır. Buna ən azı bu ilin sonunadək riayət edilməlidir. Bizim gözləntimiz müalicə üsulunun aşkarlanmasıdır ki, xəstəliyin ağır forması və ölümlər yaşanmasın", - deyə H.Harmancı bildirib.

Xəstəliyə təkrar yoluxma hallarının mümkün olub-olmamasına toxunan Hande Harmancının sözlərinə görə, bunun üçün koronavirusdan sağalan insanlar bir müddət müşahidə olunmalıdır. Həmin şəxslərin qanında anticisimlərin qalıcılığı və onları qorumaq iqtidarında olduğu araşdırılmalıdır. Bu proses uzun müddət tələb edir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyəti sədrinin müşaviri Şəhriyar Fətullayev Azərbaycanda yanvardan etibarən koronavirusla mübarizə tədbirləri çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatı ilə qarşılıqlı əməkdaşlığın davam etdiyini deyib. Onun sözlərinə görə, layihə başlamazdan əvvəl ÜST-ün ekspertləri ilə seçilən pandemiya xəstəxanalarında müvafiq işlər görülüb. Ş.Fətullayev layihədən bəhs edərək deyib: "REACT-C19 layihəsinin ikinci mərhələsi uğurla yekunlaşıb. Hazırda növbəti mərhələdəyik. Əminəm ki, Türkiyədən gələn soydaşlarımızın pandemiya dövründə ölkəmizdəki həmkarlarına dəstəyi çox müsbət nəticələr verəcək və biz az itki ilə koronavirusa qarşı mübarizəni başa çatdıracağıq".

Bir ay əvvəl Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və tapşırığı ilə Heydər Əliyev Fondu, Ümumdünya Səhiyyə Təşkilatı və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən koronavirusla mübarizədə REACT-C19 layihəsinin icrasına başlanılıb.

REACT-C19 layihəsi ölkəmizdə bütün sahələrdə davamlı həyata keçirilən islahatlar çərçivəsində prioritet yer tutan kadr potensialının gücləndirilməsi tədbirlərinin bir nümunəsidir. Bu layihə səhiyyə müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə paralel olaraq fədakarlıqla ön cəbhədə çalışan tibb işçilərinin davamlı olaraq bilik və bacarıqlarının artırılması, beynəlxalq təcrübədən bəhrələnməsi və lazımi elmi-texniki dəstəyin alınması baxımından çox önəmlidir. Əminəm ki, layihənin növbəti mərhələdə icrası uğurla davam edəcək və biz onun müsbət nəticələrinin şahidi olacağıq.

Bunu Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin direktoru, Milli Məclisin deputatı Soltan Məmmədov mayın 22-də REACT-C19 layihəsinin ikinci mərhələsinin yekunlarına dair keçirilən mətbuat konfransında deyib. Fondun nümayəndəsi bildirib ki, Azərbaycanda pandemiya ilə mübarizənin ilk günlərindən Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" çağırışından sonra ölkəmizdə bütün dövlət qurumları, qeyri-hökumət təşkilatları, sahibkarlar, ictimaiyyət və beynəlxalq təşkilatların imkanları səfərbər olaraq genişmiqyaslı tədbirlərin icrasına başlanılıb. O, REACT-C19 layihəsinin tətbiqini Azərbaycanın beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq siyasətinin bariz nümunəsi adlandırıb.

S.Məmmədov, həmçinin deyib: "İctimaiyyət və mətbuat ölkədə hər bir sahədə görülən işlər barədə davamlı olaraq məlumatlandırılır. İqtisadiyyat, sosial, siyasət, səhiyyə sahəsində görülən işlər göz qabağındadır. Sahibkarlara dəstək istiqamətində həyata keçirilən vergi siyasəti, maddi dəstək, aztəminatlı ailələrin maddi rifahının qorunması, pandemiyanın özünüməşğulluq siyasətinə göstərə biləcək mənfi təsirlərin qarşısının alınması üçün qanunvericilik bazasındakı müvafiq dəyişikliklər ölkədə həyata keçirilən uğurlu sosial və iqtisadi siyasətin göstəricisidir. Koronavirus pandemiya elan olunmamışdan öncə səhiyyə sahəsində görülən qabaqlayıcı tədbirlər və bu gün də işlərin davam etdirilməsi ictimaiyyət və beynəlxalq təşkilatlar tərəfindən müşahidə olunan uğura yol açıb". Heydər Əliyev Fondunun departament direktoru çıxışının sonunda Fondun adından Ümumdünya Səhiyyə Təşkilatına və onun Azərbaycan nümayəndəliyinə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə minnətdarlıq edib.

✍ *Hafta.az*

# DOST mərkəzləri gənclərin könüllülük fəaliyyətinə marağını daha da artıracaq

**"DOST mərkəzləri gənclərin könüllülük fəaliyyətinə marağını daha da artıracaq". Bunu hafta.az-a açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov bildirib. Millət vəkilinin sözlərinə görə, Azərbaycanda könüllülük fəaliyyətinin yeni inkişaf mərhələsində təkanverici rolu 2009-cu ildə Milli Məclisin qəbul etdiyi "Könüllü fəaliyyət haqqında" Qanun təşkil etdi:**

"On maddədən ibarət bu geniş və əsaslı qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu. Bu vaxtadək qanun mövcud olmasa da, Azərbaycanda könüllülük hərəkatı daha çox ictimai birliklərdə, gənclər qeyri-hökumət təşkilatlarında inkişaf etdirilirdi. Son illərdə ölkəmizin ev sahibliyi etdiyi "Eurovision-2012" mahnı müsabiqəsi, 2015-ci il birinci Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula -1" və digər mötəbər və irimiqyaslı tədbirlərə on minlərlə könüllü cəlb olundu".

Müşfiq Cəfərov qeyd edib ki, 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yanında könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı yaradılıb. Bugünədək 10 mindən artıq gənc könüllü kimi "ASAN xidmət" mərkəzlərində işləyib və bu insanların bir çoxu bu gün müxtəlif vəzifələrdə, müxtəlif işlərdə ölkəmizin gələcək inkişafı üçün çalışırlar: "Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştirak ediblər. DOST mərkəzlərinin yaradılması gənclərə, xüsusilə könüllülüyə marağı olan gənclərə geniş imkanlar yaradacaq. "ASAN xidmət" təcrübəsində uğurlu olduğu üçün DOST Mərkəzində də könüllülərin işə önəm veriləcək. Nəzərə alsaq ki, DOST mərkəzləri əlillərlə işə daha böyük önəm verir, burada könüllülərə daha çox ehtiyac olacaq. "ASAN xidmət"də könüllülər daha çox ərizələrin yazılması, formaların doldurulması, o cümlədən "ASAN xidmət"in həyata keçirdiyi müxtəlif layihələrdə könüllülük əsasında iştirak edirlərsə, DOST mərkəzlərində könüllülərin daha geniş və əhatəli sahələrdə təcrübə əldə etmək imkanı olacaq. Belə ki, bu mərkəzlərdə sosialyönümlü fəaliyyətlərin və proqramların icrası nəzərdə tutulub. Burada aztəminatlı ailələrə iş, özünüməşğulluq proqramları, əlillərlə iş və onların məşğulluğu kimi proqramların adını çəkmək olar. Bu isə ilk növbədə könüllülərə yeni təcrübə qazandıracaq və DOST mərkəzlərinə peşəkar kadrların yetişməsinə şərait yaradacaq", - deyən Milli Məclisin Gənclər və idman komitəsinin üzvü bildirib.



**Müşfiq Cəfərov,**
Milli Məclisin deputatı

✍ *Tural*

# DSMF-nin Ağdaş rayon şöbəsinin əməkdaşı tutulub

**Əhalinin sosial təminatı sahəsində idarəetmənin təkmilləşdirilməsində, eləcə də ünvanlılıq və şəffaflığın təmin olunması sahəsində həyata keçirilən mütərəqqi addımlara kölgə sala biləcək neqativ amillərə, koronovirus pandemiyası fonunda aztəminatlı vətəndaşlara dövlət tərəfindən ayrılmış sosial yardım paketlərinin təyinatı üzrə çatdırılmasında yol verilən sui-istifadə hallarına və vətəndaşların hüquqlarının pozulmasına yönəlmiş digər qanunsuz hərəkətlərə qarşı kəsərli tədbirlər davam etdirilir.**



Baş Prokurorluğun və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mətbuat xidmətlərindən hafta.az-a daxil olan birgə məlumatda qeyd olunur ki, həyata keçirilməkdə olan belə tədbirlərdən biri kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) Ağdaş rayon Şöbəsində aztəminatlı ailələrə sosial yardımın verilməsi üçün rüşvət tələb edilməsi barədə daxil olmuş məlumat Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində DSMF-nin Ağdaş rayon şöbəsinin məsləhətçisi Məhərət Əhmədovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, xidməti vəzifəsinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlük əldə etmək məqsədilə qulluq səlahiyyətlərinə zidd olaraq vətəndaşa sosial yardım verilməsinə köməklik göstərilməsi müqabilində onun yaxın qohumundan 1000 manat pulu rüşvət tələb edərək, həmin pulun bir qismini aldığına şübhələr üçün əsaslar müəyyən olunub.

Baş İdarənin əməkdaşları tərəfindən xüsusi texniki vasitələrdən istifadə etməklə həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri nəticəsində M.Əhmədov həmin məbləğin qalan hissəsini 21 may 2020-ci il tarixdə rüşvət kimi alarkən cinayət başında yaxalanıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb. M.Əhmədov iş üzrə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Hazırda cinayət işi üzrə təqsirli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# "Azəriqaz"ın əməkdaşlarına maneə yaradılıb

**Mayın 22-də günorta saatlarında Binəqədi rayonu, Xocəsən qəsəbəsi ərazisində "Kənan" marketin yaxınlığında qeyri-qanuni olaraq yeri dəyişdirilmiş 108 mm diametrində qaz xəttinin əvvəlki vəziyyətə qaytarılması zamanı sakinlər "Azəriqaz" İstehsalat Birliyinin Bakı Regional Qaz İstismarı İdarəsinin və Təmir-tikinti İdarəsinin əməkdaşlarına mane olublar.**



İB-dən hafta.az-a verilən məlumata görə, bu barədə dərhal rayon icra hakimiyyəti, ərazi üzrə polis orqanları, eləcə də Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng Mərkəzinə məlumat verilib. İşi tam icra etmək mümkün olmadığından hazırda 100 abonentin qaz təminatı müvəqqəti dayandırılıb. "Azəriqaz" İstehsalat Birliyi bir daha bildirir ki, qaz xətlərinə və saygaclara istənilən kənar müdaxilə qəti qadağandır. Belə hallar aşkarlandıqca ləğv olunacaq və müvafiq şəkildə hüquq-mühafizə orqanlarına rəsmi müraciətlər ediləcək.

# Ceyranbatan Sutəmizləyici Qurğularında yenidənqurma işləri aparılır

***Azərsu Açıq Səhmdar Cəmiyyəti əhalinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunması məqsədilə layihələrin icrasını davam etdirir. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun içməli su təchizatında böyük payı olan Ceyranbatan Sutəmizləyici Qurğularında əsaslı bərpa və yenidənqurma işləri aparılır.***



1960-80-ci illərdə mərhələlərlə inşa edilmiş Ceyranbatan Sutəmizləyici Qurğularının təmiz su anbarları uzun illər istismar olunub. Son dövrlərdə anbarların istismar tələblərinə cavab verməməsi lazımi həcmdə su ehtiyatlarının toplanmasında və istehlakçıların artan tələbatının ödənilməsində çətinliklər yaradırdı. Bütün bunlar nəzərə alınaraq, Ceyranbatan Sutəmizləyici Qurğularında emal olunan suların toplandığı anbarlarda əsaslı yenidənqurma işləri həyata keçirilir. Layihəyə əsasən, hər birinin tutumu 2100 kubmetr olan 5 su anbarının yenidən qurulması, yeni siyirtmə kameralarının inşası, daha məhsuldar nasos stansiyalarının quraşdırılması nəzərdə tutulur. Artıq 3 anbarda işlər yekunlaşıb, digər 2 anbarda isə davam etdirilir. Görülmüş işlər çərçivəsində həmin anbarların özül və divarları dəmir-beton konstruksiyalarla möhkəmləndirilib, korroziyaya uğramış hissələr sökülərək beton örtüklə izolyasiya edilib.

Anbarların yararsız hala düşmüş üst plitələri tamamilə sökülərək dəyişdirilib. Təmir-bərpa işləri çərçivəsində anbarların giriş-çıxış xətləri yenilənib, 14 ədəd siyirtmə yenisi ilə əvəz olunub, 5 ədəd siyirtmə kamerası inşa edilib. Suyun optimal paylanması məqsədilə qaldırıcı nasos stansiyasında 2 ədəd nasosun quraşdırılması başa çatdırılıb. Nasos stansiyalarının enerji təchizatı məqsədilə 6 kilovoltluq transformator stansiyası da inşa edilib. Yeni nasosların quraşdırılması suyun + 105 Saray anbarına qaldırılaraq buradan özüaxımlı rejimdə paylanmasına imkan verəcək. Ümumilikdə, layihə çərçivəsində indiyədək 240 kubmetr beton, 2700 kubmetr torpaq işləri görülüb. Yenidən qurulan və bərpa olunan anbarların ətrafında abadlıq və yaşıllaşdırma işləri aparılacaq. Bərpa və yenidənqurma işləri yekunlaşdıqdan sonra bu mənbədən qidalanan ərazilərdə yaşayan əhalinin içməli su təchizatında dayanıqlıq təmin olunacaq, xüsusən yay aylarında artan tələbatın ödənilməsinə əlavə imkan yaranacaq.

*✍ Qələndər Xaçınçaylı*

# AFFA liqalarda mövsümü başa çatdırıb

**AFFA-nın təşkilatçılığı ilə keçirilən aşağı yaş qrupu üzrə liqalarda mövsüm başa çatdırılıb. Bu barədə qurum rəsmi saytı vasitəsilə məlumat yayıb. Bildirilib ki, koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar yaranmış mövcud vəziyyət nəzərə alınaraq, AFFA-nın bayrağı altında keçirilən liqalarla bağlı təqdimat hazırlanaraq İcraiyyə Komitəsinin üzvlərinə göndərilib.**

Təqdimatda liqalar barədə ətraflı məlumat, hazırkı vəziyyət və UEFA-nın üzvü olan digər milli assosiasiyalarda pandemiya amili nəzərə alınaraq qəbul olunmuş qərarların qısa xülasəsi öz əksini tapıb.

Xüsusi karantin rejimi ilə əlaqədar AFFA İcraiyyə Komitəsinin iclasının keçirilməsi mümkün olmadığı üçün telefon zəngi vasitəsilə liqalarla bağlı təqdimatda qeyd olunmuş məsələlər barədə hər bir üzvün münasibəti öyrənilib. AFFA rəhbərliyi və İcraiyyə Komitəsinin üzvləri, ilk növbədə ölkəmizdə koronavirus (COVID-19) infeksiyasının qarşısının alınması, pandemiya dövründə vətəndaşların sağlamlığı naminə dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərlə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. Aparılan geniş müzakirələrdən sonra səs çoxluğu ilə aşağıdakı qərarlar qəbul olunub:

1. Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar mövcud vəziyyət, Nazirlər Kabineti yanında Operativ Qərargahın təhsil müəssisələrində tədris prosesi ilə bağlı qəbul etdiyi müvafiq qərarlar nəzərə alınaraq, AFFA-nın təşkilatçılığı ilə keçirilən U-9, U-10, U-11, U-12, U-13, U-14, U-15, U-16, U-17 liqalarında, U-11, U-13, U-16 və Yüksək qızlar liqalarında, "Coca-Cola Məktəbli Kuboku" turnirində, Region Liqasında mövsüm başa çatdırılsın. Final mərhələsi play-off sistemi ilə keçirilən turnirlər istisna olmaqla, digər liqalarda hazırda turnir cədvəlində birinci pillədə olan komandalar qalib elan olunsun.

Koronavirus (COVID-19) pandemiyası ilə bağlı müsbət istiqamətdə dəyişikliklər baş verərsə, Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlar nəzərə alınmaqla, yekunlaşdırılmış liqaların komandaları arasında mini-turnirlər təşkil olunması nəzərdə tutulsun.

# "Monako" 30 futbolçusunu satır

**"Monako" klubunun rəhbərliyi əsas komandanın heyətində ciddi ixtisarlar aparmaq qərarına gəlib. "Knyazlıq klubu" yeni mövsüm ərəfəsində 30 futbolçusunu satmaq niyyətindədir.**




Bununla monakolular həm maaşların ümumi məbləğini azaldacaq, həm də transferlərdən 50 milyon avroya yaxın qazanacaq. Büdcəsinə görə Fransa Liqa1-in üçüncü komandası ardıcıl ikinci dəfə avrokuboklardan kənar qalması üzündən maliyyə çətinlikləri ilə üzləşib. Lakin "Monako" liderlərini satmaq fikrindən uzaqdır. Aparıcı futbolçuları saxlayacaq komanda digərlərinin transferə çıxaracaq. Qeyd edək ki, "Monako" koronavirus üzündən yarımçıq başa çatan son Fransa çempionatında 9-cu yeri tutub.

# Pep Qvardiolanın ən uğursuz transferlərinin siyahısı açıqlanıb

**"Mançester Siti"nin baş məşqçisi Pep Qvardiolanın karyerası ərzində reallaşdırdığı ən uğursuz transferlər müəyyənləşib. İlk "10-luq" kimi sıralanan siyahıya Zlatan İbrahimoviç başçılıq edib.**



İsveçli forvard 2009-cu ildə "İnter"dən "Barselona"ya transfer olunub. İlk "üçlük"dəki digər oyunçular MDB məkanından olan Aleksandr Qleb və Dmitri Çiqrinskidir.

1. Zlatan İbrahimoviç ("İnter"dən "Barselona"ya - 2009-cu il) - 62,5 milyon funt-sterlinq
2. Aleksandr Qleb ("Arsenal"dan "Barselona"ya - 2008) - 15,3 milyon
3. Dmitri Çiqrinski ("Şaxtyor"dan "Barselona"ya - 2009) - 22,5 milyon
4. Klaudio Bravo ("Barselona"dan "Mançester Siti"yə - 2016) - 16,2 milyon
5. Nolito ("Selta"dan "Mançester Siti"yə - 2016) - 16,2 milyon
6. Keyrrison ("Palmeyras"dan "Barselona"ya - 2009) - 12,6 milyon
7. Martin Kaseres ("Vilyarreal"dan "Barselona"ya - 2008) - 14,8 milyon
8. Con Stounz ("Everton"dan "Mançester Siti"yə - 2016) - 50 milyon
9. Yan Kirxhoff ("Mayns"dan "Bavariya"ya - 2013) - azad agent
10. Danilo ("Real"dan "Mançester Siti"yə - 2017) - 26,5 milyon

Qeyd edək ki, 2008-2012-ci illərdə "Barselona", 2013-2016-cı illərdə "Bavariya"ya başçılıq etmiş Pep Qvariola 2016-cı ildən "Mançester Siti"nin sükanı arxasındadır.

# "Bakcell"dən Azərbaycanın ən sürətli mobil şəbəkəsində 50 GB trafiki cəmi 30 manata




**Abunəçilərin irihəcmli internet trafikinə olan tələbatını ödəmək məqsədilə "Bakcell" şirkəti cəmi 30 manata yeni 50 GB İnternet paketini təqdim edir.**

Bu təklif sayəsində Bakcell öz abunəçilərinə Azərbaycanın ən üstün və ən sürətli mobil şəbəkəsinin tam potensialından istifadə etmək imkanı qazandırır. İriһəcmli internet paketi yüksək keyfiyyətli videokontentə baxmaq və ya yükləmək, sosial media və əyləncə proqramlarına ani giriş edə bilmək, HD keyfiyyətində canlı yayımlanan idman və musiqi verilişlərinə baxmaq və yeni nəsil mürəkkəb mobil tətbiqetmələrdən istifadə etmək istəyən abunəçilər üçün çox əlverişlidir.

"Müasir müştəri təcrübəsi daha sürətli və keyfiyyətli mobil internet bağlantısı, eləcə də daha böyük trafik həcmi tələb edir. Biz abunəçilərimizə bütün ölkə ərazisində video yayım xidmətləri, sosial şəbəkələr və digər yüksək keyfiyyətli kontentlə yanaşı ən müasir telekommunikasiya xidmətlərindən istifadə imkanı təqdim etməkdən məmnunuq.

Azərbaycanın ən üstün mobil şəbəkəsi ilə yanaşı üstün müştəri təcrübəsini təmin etmək məqsədilə, təklif etdiyimiz xidmət və məhsulların təkmilləşdirilməsini davam etdirəcəyik", deyə Bakcell şirkətinin baş kommersiya direktoru Reinhard Zuba bildirib.

50 GB internet paketini "Mənim Bakcellim" tətbiqetməsi vasitəsilə və ya xüsusi kodu yığmaqla əldə etmək olar. Daha ətraflı məlumat üçün <https://www.bakcell.com/az/50gb-bundle> səhifəsini ziyarət edin. "Bakcell" şirkəti məhsul və xidmətlərinin keyfiyyətini müntəzəm qaydada artırmaqla abunəçilərinə daha yaxşı müştəri təcrübəsi təqdim edəcək. Ölkədə ən geniş əhatə dairəsinə malik olan, tanınmış OOKLA şirkəti tərəfindən ardıcıl olaraq 3 dəfə "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülmüş Bakcell şəbəkəsi bunun üçün bütün texniki imkanları təmin edir.

# Bölgələrdə yaşayan 4000-dən çox ailə "Azercell"dən dəstək aldı!



**"Azercell Telekom" MMC koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə həssas təbəqədən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində təşəbbüslərini əsirgəmir və aztəminatlı ailələrə dəstəyini davam etdirir.**

Belə ki, şirkət karantin dövründə müqəddəs Ramazan ayının dördüncü həftəsində də bölgələrdə yaşayan 1000-dən çox xüsusi diqqət və qayğıya ehtiyacı olan ailəyə ərzaq yardımı göndərib. Bununla da, ümumilikdə Ramazan ayı boyu bölgələrdə sosial təcrid şəraitində yaşayan həssas kateqoriyalardan olan 4000-dən çox ailəyə ərzaq məhsullarından ibarət sovqat paylanıb. Azercell-in bu xeyriyyə layihəsindən Cəlilabad, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Göygöl, Hacıqabul, Xızı, Naftalan, Xocalı, Zəngilan, Şuşa, Kəlbəcər sakinləri yararlanıblar.

Sovqatlar Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" MMC ölkə boyu müxtəlif ünvanlara çatdırıb. Aztəminatlı ailələrin siyahısı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim olunub.

Xatırladaq ki, Novruz bayramı münasibətilə və koronavirus (COVID-19) infeksiyası ilə mübarizə çərçivəsində "Azercell Telekom" MMC həssas qrup kateqoriyadan olan insanlara qayğı və dəstək məqsədilə "Regional İnkişaf" İctimai Birliyi (RİİB) ilə birlikdə I-ci qrup əlilliyə görə sosial müavinət alan ailə üzvü olan 6000-ə yaxın aztəminatlı ailəyə bayram sovqatı paylamışdı.

Eyni zamanda, lider mobil operator tərəfindən həyata keçirilən aksiyaların davamı olaraq Azercell əməkdaşları da xeyirxah təşəbbüsə qoşularaq öz töhfələrini veriblər. Belə ki, xüsusi karantin rejiminin tətbiq olunduğu bu müddət ərzində şirkət əməkdaşlarından ibarət "Azercell könüllüləri" dəstəyə ehtiyacı olan ailələri ziyarət edərək onları ərzaq məhsulları ilə təmin ediblər. Qeyd edək ki, "Azercell Telekom" MMC COVID-19 pandemiyası dövründə bir çox sosial layihə və xeyriyyə aksiyaları gerçəkləşdirib.

## HƏFTƏ REYTİNQ

### Həftənin "Xalq artisti villası"



"Xəzər TV"nin "Evdəkilərə salam" verilişi bu dəfə Xalq artisti Aygün Səmədzadənin bağ evinə qonaq oldu. Xalq artistinin bağ evi görənləri heyran edir. Geniş bağ evi aparıcının, həmçinin tamaşaçıların diqqətini çəkib. Qeyd edək ki, bəstəkar, musiqişünas Aygün Səmədzadə Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, NƏFƏS Sənət mərkəzinin direktorudur. 2019-cu ildə Azərbaycan bəstəkarları;n Vətən haqqında mahnılarının "Azərbaycan 100 mahnıda" klavirinin ideya müəllifi və layihə rəhbəridir.

2011-ci il sentyabr ayının 15-də Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi, 2018-ci ilin 27 mayında isə Azərbaycanın xalq artisti fəxri adına layiq görülmüşdür.

### Həftənin "koronaviruslu respublika rəhbəri"



Çeçenistan prezidenti Ramzan Kadırov koronavirusa yoluxdu. Prezidenti təcili Moskvaya gətiriblər. Qeyd edilib ki, Kadırovda koronavirus şübhəsi yaranıb və o, həkimlərin nəzarətindədir. Tibbi dairələrdən verilən məlumatlara görə, Ramzan Kadırovda artıq ağciyərlərin zədələnməsi müşahidə olunur.

### Həftənin "paqonlu Xalq artisti"



Xalq artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Fidan Hacıyeva Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrinin rəis müavini - mahnı ansamblının rəisi təyin edildi. Bu barədə mediaya sənətçinin özü açıqlama verib. F.Hacıyeva sənətinə verilən qiymətə görə, minnətdarlığını belə bildirib: "Bu təyinata görə Daxili Qoşunların rəhbərliyinə dərin təşəkkürümü bildirirəm. Sənət insanlarına verilən qiymət bizim üçün olduqca önəmli və dəyərlidir".

### Həftənin "sərt qanunpərəsti"



Milli Məclisin plenar iclasında çıxış edən Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov xalqa qarşı həqarət edənlərin sərt şəkildə cəzalandırılmasını təklif etdi.

"Milli sözünü də biabır edən Milli Şura adlı dərnəyin toplantısında Azərbaycan xalqına qarşı aşağılayıcı fikirlər səsləndirilib"-deyə, S.Novruzov bildirdi. Komitə sədri təklif etdi ki, Azərbaycan xalqına qarşı aşağılayıcı fikirlər cinayət məsuliyyəti yaratmalıdır.

"Biz xalqın aşağılanmasına imkan verə bilmərik. Hesab edirəm ki, qanunları sərtləşdirməliyik. Onlar özləri bir-birini ifşa edi. Biri deyir ki, hansısa türk serialının yayımlandığı saatda bu müzakirələr aparmayaq. Yəni Əli Kərimlinin sərsəmləməsinə qulaq asmaq üçün başqa bir vaxt təklif edirlər. Deməli, bir türk serialı Əli Kərimlinin sərsəmləməsindən on qat əhəmiyyətlidir. Biz qanunlarımızı sərtləşdirməliyik. Bu milləti qorumaq hər birimizin borcudur...".

### Həftənin "iqtisadçı əməkdar artisti"



Əməkdar artist Nüşabə Ələsgərli "XəzərTV"nin "Ona qalsa" verilişində karantin dövründə toyların olmadığı şəraitdə dolanışıq yollarından danışdı:

"Alın tərimizlə gedib toylarda oxuyub, pul qazanmışıq. İnsan gərək ehtiyatını görüb, 3-5 manat kənara qoysun. Əgər əlavə pulun varsa, əl tutmaq gözəl şeydir. Bir də çalışın imkan daxilində onu göstərməyin. Göstərəndə də tendesiya kimi edin ki, camaat da qoşulsun. Heç kəsin artıq pulu yoxdur. Çünki pul artıq olmur. Müəllimə kimi işləyirəm, maaş alıram.

Deyirlər, yayda toy olmayacaq. Bundan sonra müğənnilik etməsəm də hamı necə mən də elə. Bunu əvvəldən düşünmək lazım idi. Mənim axırım necə olacaq: sabah qocalacam, işləməyəcəm, səsim batdı, qəzaya düşdüm, başıma nəsə gəldi. Ona görə də bu günlə yaşamaq lazım deyil. Sabahı düşünüb, nəsə etməlisən".

### Həftənin "oğru dayı-bacıoğlusu"



Binəqədi rayonu Biləcəri qəsəbəsində paytaxt sakini İsmayıl İsmayılzadəyə məxsus "VAZ 2107" markalı avtomobil naməlum şəxs tərəfindən qaçırıldı. Zərərçəkən ərazi üzrə Binəqədi Rayon Polis İdarəsinin 6-cı Polis Bölməsinə şikayət edərək nəqliyyat vasitəsinin oğurlandığını bildirib. Bölmə əməkdaşlarının "isti" izlərlə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən hadisəni törətməkdə şübhəli bilinən paytaxt sakinin əvvəllər məhkum olunmuş Sahib Əliyev və onun bacısı oğlu Nicat Musayev tutularaq istintaqa təqdim ediliblər. Araşdırma zamanı müəyyən edilib ki, S.Əliyev avtomobili qaçırandan sonra yaşadığı Abşeron rayonu Məhəmmədi qəsəbəsində sökərək hissələrə ayırıb. Daha sonra o, həmin ehtiyat hissələrinin bəzilərini qohumu N.Musayevin tapdığı müştərilərə satıb. Qaçırılan nəqliyyat vasitəsinin qalan hissələri polislər tərəfindən S.Əliyevin yaşadığı evin həyətindən aşkar olunaraq götürülüb.

Faktla bağlı 6-cı Polis Bölməsində toplanan materiallar araşdırılması üçün Bonəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib.

*✍ Sultan Laçın*

## ELAN

**ƏMDK-nın yanında DƏDRX-ni 14 saylı Şamaxı Ərazi İdarəsi tərəfindən Qobustan rayonu Xilmilli kənd sakini Zayıdova Qızlarxanım Milas qızına və ailə üzvlərinə verilmiş 290602028 qeydiyyat nömrəli reyestrdən Çıxarış itdiyi üçün etibarsız sayılır.**

**ƏMDK-nın yanında DƏDRX-ni 14 saylı Şamaxı Ərazi İdarəsi tərəfindən Qobustan rayonu Xilmilli kənd sakini Əliyeva Mehriban Milas qızına və ailə üzvlərinə verilmiş 290602027 qeydiyyat nömrəli reyestrdən Çıxarış itdiyi üçün etibarsız sayılır.**